# BEŞİNCİ ÇAĞIRIŞ
# AZƏRBAYCAN RESPUBLİKASI
# MİLLİ MƏCLİSİNİN
# XI SESSİYASI İCLASININ

# PROTOKOLU № 81

*Milli Məclisin iclas salonu.*
*15 noyabr 2018-ci il.*

*İclasa Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***O.Əsədov*** *sədrlik etmişdir.*

**İclasda Milli Məclisin 107 deputatı iştirak etmişdir.**

| | |
|---|---|
| **Qeydiyyat** | (saat 12.01 dəq.) |
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

**İclasa dəvət olunmuşlar:**

**Samir Şərifov,** Azərbaycan Respublikasının maliyyə naziri.

* * *

**Vüqar Gülməmmədov**, Azərbaycan Respublikası Hesablama Palatasının sədri.

**Adil Məhərrəmov**, Azərbaycan Respublikası Hesablama Palatası sədrinin müavini.

* * *

**İlqar Məmmədov**, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat Baş İdarəsinin rəisi.

**İclasın gündəliyinə aşağıdakı məsələlər daxil idi:**

6. Azərbaycan Respublikası Milli Məclisin 2019-cu il üçün xərclər smetası haqqında.

7. Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu il üçün xərclər smetası haqqında.

8. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

9. "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).

10. "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikasının qanununun layihəsi haqqında (ikinci oxunuş).

11. "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.

**Aşağıdakı məsələlər müzakirə edilmişdir:**

**6. Azərbaycan Respublikası Milli Məclisin 2019-cu il üçün xərclər smetası haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Firudin Hacıyev, Tahir Kərimli, Naqif Həmzəyev, Vahid Əhmədov, Qüdrət Həsənquliyev, Zahid Oruc, Fəzail Ağamalı, Fazil Mustafa,

Siyavuş Novruzov, Aytən Mustafazadə, Qənirə Paşayeva, Vüqar Gülməmmədov

**7. Azərbaycan Respublikası Hesablama Palatasının 2019-cu il üçün xərclər smetası haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Vüqar Gülməmmədov

**8. Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi barədə (ikinci oxunuş).**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Qüdrət Həsənquliyev, Çingiz Qənizadə, Ziyafət Əsgərov, Fərəc Quliyev, İlham Əliyev, Əflatun Amaşov, Fazil Mustafa, Siyavuş Novruzov, Tahir Rzayev

**Təklif:** Layihə ikinci oxunuşda əsas kimi qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |

Nəticə: Qəbul edildi

**Təklif:** 1–6-cı maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 4 |

| | |
|---|---|
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 7–16-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 4 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** 17–26-cı maddələr qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 4 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

**9. “Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında” Azərbaycan Respublikasının**

**Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 4 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**10. "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında (ikinci oxunuş).**

**Çıxış etmişdir:** Oqtay Əsədov

**Təklif:** 1-ci maddə qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**Təklif:** 2–3-cü maddələr qəbul edilsin

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |

Nəticə: Qəbul edildi

**Təklif:** Layihə ikinci oxunuşda qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
| Lehinə | 96 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |

Nəticə: Qəbul edildi

**11. “Notariat haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikası qanununun layihəsi haqqında.**

**Çıxış etmişlər:** Oqtay Əsədov, Əli Hüseynli, Ziyafət Əsgərov, Siyavuş Novruzov, Fazil Mustafa

**Təklif:** Qanun qəbul edilsin

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |

Nəticə: Qəbul edildi

**Azərbaycan Respublikası**
**Milli Məclisinin Sədri** **O.ƏSƏDOV**

# MİLLİ MƏCLİSİN İCLASI

*15 noyabr 2018-ci il. Saat 12.*

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri* ***Oqtay Əsədov*** *sədrlik edir*

**Sədrlik edən.** Xoş gördük, hörmətli millət vəkilləri! Xahiş edirəm, qeydiyyatdan keçək.

| **Qeydiyyat** | (saat 12.01 dəq.) |
|---|---|
| İştirak edir | 96 |
| Yetərsay | 83 |

Çox sağ olun, yetərsay var, iclasımıza başlaya bilərik. Gündəliyimizdə 6 məsələ qalıb. Gündəliyin 6-cı məsələsi Azərbaycan Respublikası Milli Məclisinin 2019-cu il üçün xərclər smetası haqqındadır. Buyursun Firudin Hacıyev.

**F.Hacıyev,** *Milli Məclisin İşlər müdiri.*

Təşəkkür edirəm, cənab Sədr. Hörmətli Sədr, hörmətli deputatlar! Bildiyiniz kimi, Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsinin 52-ci maddəsinə əsasən Milli Məclisin xərclər smetası növbəti ilin dövlət büdcəsinə baxılarkən təsdiq edilir. Gələn il üçün tərtib

olunmuş xərclər smetasının layihəsi sizə təqdim edilmişdir. Milli Məclisin və onun Aparatının 2019-cu il üçün xərclər smetasının layihəsi mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydalara uyğun olaraq ştat cədvəlləri, inzibati binaların mühəndis qurğularına xidmət göstərən təşkilatlarla bağlanmış müqavilələrə və proqnozlara əsasən tərtib edilmişdir.

Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində Milli Məclisin və onun Aparatının saxlanması üçün 27 milyon 69 min 600 manat vəsait nəzərdə tutulmuşdur. Bildiyiniz kimi, xərclər smetasının ümumi dəyərinin 68,5 faizini əmək haqqı fondu və əmək haqqı ilə əlaqədar ayırmalar təşkil edir.

Son illər ölkədə aparılan məqsədyönlü siyasətin nəticəsi olaraq Azərbaycan parlamentinə xarici ölkələrdən gələn qonaqların və Milli Məclisin deputatlarının xarici səfərlərinin, eləcə də ölkədaxili ezamiyyətlərinin sayı xeyli artmışdır. "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Konstitusiya Qanununun 70.3-cü maddəsində edilmiş dəyişikliklərə əsasən, Azərbaycan Respublikasının Milli Məclisində qanun layihələrinə, həmçinin Konstitusiya qanununun layihəsinə 3 oxunuşda baxılması nəzərdə tutulduğundan Milli Məclisin iclaslarının sayının çoxalması ilə əlaqədar dəftərxana, mətbəə və avadanlıqların alınması xərclərinin artırılmasına, Milli Məclisin inzibati binasında 1994-cü ildə xidməti istifadə üçün quraşdırılmış operativ rabitə ATS-nin yenidən qurulmasına, Milli Məclisin inzibati binalarının isidilməsini və soyudulmasını həyata keçirmək üçün 2006-cı ildə quraşdırılmış çillerlərin sıradan çıxmış bəzi ehtiyat hissələrinin yeniləri ilə əvəz edilməsinə və informasiya texnologiyalarının inkişafı ilə əlaqədar Milli Məclisin inzibati binasında iki

ədəd məlumat bazası servis otağının yenidən qurulmasına əlavə vəsait tələb olunur.

Hörmətli Samir müəllim, göstərilənlərə əsasən 2019-cu ilin xərclər smetasında bəzi maddələr üzrə vəsaitin çatışmazlığını nəzərə alaraq dəftərxana və təsərrüfat xərcləri paraqrafına 50 min manat, mətbəə xərcləri paraqrafına 50 min manat, xaricə ezamiyyə paraqrafına 200 min manat, avadanlıqların alınması yarımmaddəsinə 150 min manat, digər alış və xidmətlər yarımmaddəsinə 200 min manat, icarə və muzdlu xidmətlər paraqrafına 200 min manat, digər maşın və avadanlıqlar maddəsinə 250 min manat, eləcə də Milli Məclisin avtoparkında maddi-texniki bazanın yaxşılaşdırılması məqsədi ilə nəqliyyat vasitələri maddəsinə isə 200 min manat vəsait ayrılmasına kömək göstərməyinizi xahiş edirik.

Qeyd etmək istəyirəm ki, sahəsi 800 kvadratmetr olan yeməkxana inşa olunaraq istifadəyə verilmişdir. 2006-cı ildə quraşdırılmış Milli Məclisin televiziya mərkəzinin analoq yayım sistemindən yeni rəqəmsal yayım sisteminə keçməsi ilə əlaqədar televiziya mərkəzi yeni müasir avadanlıqlarla təchiz edilərək yenidən quraşdırılmışdır. Plenar iclas zalında, 2-ci və 15-ci mərtəbələrdəki görüş zallarında robotlaşdırılmış kamera və avadanlıqlar yeniləri ilə əvəz edilmişdir. Həmçinin plenar iclas zalında səsvermə sistemi qismən dəyişdirilərək səsvermə prosesində istifadə olunan iki ədəd monitor yeniləri ilə əvəz edilmişdir. Bundan başqa, 1980-ci ildə quraşdırılmış elektrik yarımstansiyalarında yenidənqurma işləri aparılmış, istismara yararsız hala düşmüş avadanlıqlar yeniləri ilə əvəz edilmişdir. Bildirmək istəyirəm ki, Milli Məclisin inzibati binalarında, iclas zallarında, həyətyanı sahədə, maşın zalında, avtoparkda mütəmadi olaraq yenidənqurma işləri bu gün də davam

etdirilməkdədir.

Hörmətli Sədr, hörmətli deputatlar! 2019-cu il dövlət büdcəsində Milli Məclis üçün nəzərdə tutulmuş xərclər smetasına dair əlavə açıqlamaya ehtiyac olduğu təqdirdə suallarınıza cavab verməyə hazıram. Sizdən Milli Məclisin 2019-cu il üçün xərclər smetasının layihəsinin təsdiq edilməsinə səs verməyinizi xahiş edirəm. Diqqətinizə görə minnətdaram.

**Sədrlik edən.** Sağ olun. Tahir Kərimli.

**T.Kərimli.** Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar, hörmətli hökumət nümayəndələri və hörmətli media nümayəndələri! Məsələ ilə bağlı 3 təklifim var. Oqtay müəllim, Sizə – parlament rəhbərliyinə təşəkkür edirəm. Doğrudan da, bizim çox əzəmətli parlament binamız var. Bilirik, çox əziyyət çəkmisiniz, yaxşı strukturlar var, deputatların, işçilərin hamısının iş şəraiti yaxşıdır. Bunlar çox gözəldir. Eyni zamanda, Aparatımızın işçiləri çox səmimidirlər, işgüzardırlar, mən hələ bir dəfə də onlardan inciklik görməmişəm. Çoxlarını 25–30 ildir tanıyıram. Çox yaxşı, qabiliyyətli insanlardırlar. Biz bilirik ki, onların bəzilərinin mənzil şəraitinin, digər problemlərinin həllində, həmçinin deputatlara da zaman-zaman böyük kömək etmisiniz. Amma mən bilirəm ki, onların bir çoxunun yenə də mənzilə ehtiyacı var. Mən hökumətdən xahiş edirəm ki, mənzil tikintisi üçün, Milli Məclisin işçilərinin mənzil təminatını yaxşılaşdırmaq üçün mütləq bir vəsait ayrılsın. Buna haqları var. Bir sıra nazirliklərdə, idarələrdə, baş idarələrdə buna bənzər proseslər gedir. Milli Məclisdə də bunun olmasını arzulayıram.

Biz bilirik ki, zaman-zaman deputatların əmək haqlarının qaldırılması həmişə ajiotaj yaradıb, ona görə bəlkə də buna ehtiyac yoxdur. İkinci təklifim odur ki, deputata öz

səlahiyyətlərini həyata keçirməkdən ötrü verilən müavinətin miqdarı artırılsın.

Üçüncü təklifim isə ondan ibarətdir ki, bu cür gözəl parlamentimizin, təəssüf edirəm ki, bir televiziyası yoxdur və parlament televiziyasının olmasına tərəfdar çıxanlar deyirlər ki, böyük dövlətlərdə bu var, bizdə yoxdur. Azərbaycan Respublikası əhalisinin sayının 10 milyona çatması münasibəti ilə yəqin ki, bu yaxın vaxtlarda təbriklərimiz olacaq. Biz Cənubi Qafqazın böyük dövlətiyik, müəyyən dərəcədə maddi imkanlarımız da var. Mən elə hesab edirəm ki, televiziyanın açılmasına çox böyük ehtiyac var. Bu, eyni zamanda, bütün plenar iclasların, komitə iclaslarının, görüşlərin, qəbulların, parlament fəaliyyətinin işıqlandırılması üçün çox vacib bir məsələdir. Ən mühümü isə, əlbəttə ki, seçicilərin öz deputatlarının fəaliyyətinə daha yaxşı nəzarət etməsinə imkan yaranardı, onların faydalı iş əmsalı ilə bağlı müəyyən arayışlar alar, eyni zamanda, öz deputatını nəzarətdə saxlaya bilərdilər.

Dördüncü məsələ odur ki, bu televiziya olan zaman, əlbəttə ki, akkreditasiya olunmuş jurnalistlərin də hüquqlarının qorunması şərti ilə, bunun kadr potensialı ilə bağlı imkan var, bizim parlamentimizin mətbuat xidməti var və eyni zamanda, bu jurnalistlərdən də istifadə etmək olardı. Texniki vasitələrə gələndə isə biz azpress.az saytında Bahar xanımın müsahibəsini oxuduq, Firudin müəllim də öz çıxışında dedi. Biz bilirik ki, televiziya mərkəzinin yaxşı avadanlıqları var, rəqəmsal texnologiyalar alınıb və sair. Deməli, bütün bu vasitələr var. Bəzi məsələlər başqa televiziyalarda işıqlandırılır. Çox təəssüf ki, dövlət büdcəsindən maliyyələşən digər televiziyalarda bizim fəaliyyətimiz kifayət qədər işıqlandırılmır. Bir çox dövlətlərdə artıq parlament televiziyaları, parlament saatları var, de-

mək olar ki, yayımlar canlı göstərilir. Bizdə isə bu məsələlər bir qədər axsayır.

Eyni zamanda, ən mühüm məsələlərdən biri də odur ki, bizim sözümüz təhrif olunmaz, burada dediyimiz sözlər dəyişdirilməz və biz nahaq hücumlara məruz qalmarıq. Yəni televiziya vasitəsi ilə həqiqət aydın olar. Bəlkə də öz məsələlərimizi izah edə bilərik. Elə mənim başıma gələn bir məsələni demək istərdim. Mən himn ilə bağlı sözümü dedim. Burada çıxış edən zaman deputat statusuna uyğun olaraq, bütün məsələlər barədə fikirlərimi bildirmək səlahiyyətinə malik bir şəxs kimi yox, sanki özünümüdafiə hüququnu həyata keçirən müttəhim kimi danışıram, sanki mənə hamı baxır və deyir ki, hələ bunun danışmağa bir üzü də var. Mənim bu məsələ ilə bağlı çıxışımı elə vəziyyətə qoydular ki...

Mən Fəzail müəllimə, Siyavuş müəllimə minnətdaram. Onlar məsələni lazımi sözlərlə, ziyalı səviyyəsində yoluna qoydular. Amma saytlarda, məlumat mənbələrində bizim parlamentimizin deputatını çıxışına görə biabır etdilər, hətta hədələdilər. Sabah üçüncü qüvvə bundan istifadə edib, mənə qarşı hər hansı bir tədbir görəndə, bilmirəm, kimlərin isə ürəyi sızlayacaq, ya yox. Himnin dəyişdirilməsi məsələsini, himni təhqir etməyimi də dedilər və sair. Mən bu barədə çox danışmaq istəmirəm. Mənim başıma gələn hamının başına gələ bilər. Mən bu il 17 kənddə görüş keçirmişəm. Mən sabah nə üzlə camaatın qarşısına çıxıb görüşlər keçirim? Nə günə qoydular, demədiyim sözləri adıma dedilər. O televiziya bizə imkan verər ki, öz hüquqlarımızı müdafiə edək.

**Sədrlik edən.** Sağ olun. Naqif Həmzəyev.

**N.Həmzəyev.** Cənab Sədr, hörmətli hökumət nümayəndələri, dəyərli millət vəkilləri, KİV nümayəndələri! Oqtay

müəllim, bildiyiniz kimi, bu il bizim parlamentimizin 100 illiyi qeyd olundu və mən fürsətdən istifadə edib möhtərəm cənab Prezidentimizə bir daha dərin təşəkkürümü bildirirəm ki, dövlət başçımız tərəfindən Sizin, parlamentin, deputatların fəaliyyətinə çox yüksək səviyyədə qiymət verildi və həqiqətən də, biz bu fəaliyyəti bundan sonra daha da həvəslə davam etdirməliyik.

Bu ilin büdcəsində parlamentə ayrılan vəsaitlər çox düzgün xərcləndi və elə bu gün bizim oturduğumuz bu zalda avadanlıqların böyük əksəriyyəti yenilənib, dəyişdirilib və bu da çox vacib məsələlərdən biridir. Mən çox qısaca, vaxtınızı almadan, bir məsələni təklif olaraq hökumət nümayəndələrinin nəzərinə çatdırmaq istəyirəm. Bilirsiniz ki, artıq ölkəmizdə elektron hökumət layihəsi çox uğurla həyata keçirilir və parlament də bu proseslərin tərkib hissəsində öz üzərinə düşən işləri görür. Aparatın da işi çox çətindir, çox ağırdır. Amma buna baxmayaraq, bizim Aparatda elektron sənəd dövriyyəsi layihəsi çərçivəsində müəyyən addımlar atılıbdır. Bu prosesi sürətləndirmək üçün mən təklif edirəm ki, əgər hökumət tərəfindən bizim büdcəyə bir az da əlavələr olunsa idi, bu proses daha sürətlə gedərdi və bizim parlamentdə də elektron sənəd dövriyyəsi müasir dövrün tələblərinə cavab verərdi, deputat ofisləri də bu prosesə inteqrasiya olunardı. İnanıram ki, bu məsələdə də biz öz üzərimizə düşən yükü anlayacağıq və bu prosesdə öz funksiyamızı daha şəffaf yerinə yetirəcəyik. Mən diqqətinizə görə təşəkkür edirəm. Çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun. Vahid Əhmədovun sualı var, buyur.

**V.Əhmədov.** Çox sağ olun, Oqtay müəllim. Sizdən bir xahişim var. O şəhid ailələri yenə Milli Məclisin qarşısına

yığışıblar. Millət vəkilləri gəlirlər, gedirlər, orada nalayiq söhbətlər olur. Mən Sizdən artıq dərəcədə xahiş edirəm, cənab nazirə deyin, bu insanları bir-bir qəbul etsin, birdəfəlik başa salsın ki, bunlara, doğrudan da, o qan pulu düşür, ya düşmür. Yoxsa hər dəfə biz gələndə qarşımızı kəsirlər, xahiş edirlər, yalvarırlar. Bunu başa salmaq, aydınlıq gətirmək lazımdır. Lazımdırsa, bir komissiya yaradaq, burada biz məşğul olaq. Nazirlik bununla məşğul ola bilmirsə, vaxtı yoxdursa, bu, başqa məsələ. Amma bu, birbaşa Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin səlahiyyətinə aid olan məsələdir və bunu axıra çatdırmaq lazımdır. Xahiş edirəm, bu barədə göstəriş verin. Çox sağ olun.

**Sədrlik edən.** Sağ olun. Mənim bildiyim qədər, onlar dünən nazir tərəfindən qəbul olunmuşdular. Bir daha dəqiqləşdirərəm. Onlarla böyük bir görüş olmuşdu. Dəqiqləşdirərik. Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Çox sağ olun, cənab Sədr. Hörmətli qonaqlar, media nümayəndələri! Mən, əlbəttə, bu büdcə layihəsinə səs verəcəyəm, amma bir məsələyə diqqət yetirmək istəyirəm. Büdcə layihəsi Milli Məclisin komitə iclaslarında müzakirə olunanda mən məsələ qaldırdım ki, yığılan cərimələrdən və rüsumlardan ayrı-ayrı kateqoriyalı məmurların əmək haqlarının artırılması məqsədi ilə istifadə olunmasının, ümumiyyətlə, əleyhinəyəm və söyləmişdim ki, bu məqsədlə həmin o 25 faizin 5 faizi Prezident Administrasiyasının, 2 faizi isə Nazirlər Kabinetinin əməkdaşlarına ayrılır. Təklif etmişdim ki, ya bu, ümumiyyətlə, aradan qaldırılmalıdır, ya da Milli Məclisin də işçilərinin əmək haqları artırılmalıdır, heç olmasa, 3 faiz də Milli Məclisin işçilərinə verilməlidir. Amma çox təəssüf ki, bizim, bax, bu auditoriyada əyləşən bəzi jurnalist

dostlarımız mənim fikrimi tamamilə təhrif edərək dedilər ki, "Qüdrət Həsənquliyev məsələ qaldırıb, həmin 3 faiz deputatlara verilsin". Çox təəssüf ki, bizim keçmiş həmkarımız Cəmil Həsənli başda olmaqla, Azərbaycana qarşı xaricdən istifadə olunan o tərbiyəsiz ünsürlər məni, Milli Məclisin üzvlərini, hökuməti mətbuatda təhqir etməyə başladılar. Ona görə də mən Akif müəllimdən xahiş etdim ki, həmin jurnalistlərlə söhbət etsin.

Oqtay müəllim, mən burada Milli Məclisin rəhbəri kimi Sizə də müraciət edirəm. Yəni peşəsinə bu cür xəyanət edən jurnalistlərin yeri bura deyil, onların akkreditasiyası ləğv olunmalıdır. İndi çox təəssüf ki, Azərbaycanda bəzi reket jurnalistlər var, qoy getsinlər, onların sıralarına qoşulsunlar. Bu gün də fikrimdə qalıram ki, Milli Məclisin işçilərinin əmək haqları artırılmalıdır. Konstitusiyaya görə, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir və Milli Məclisin əməkdaşları Prezident Administrasiyası əməkdaşlarının əmək haqları qədər olmasa da, heç olmasa, ona yaxın səviyyədə əmək haqqı almalıdırlar.

Allah rəhmət etsin, mərhum Prezident Heydər Əliyevin dövründə bizim iqtisadi vəziyyətimiz indikindən çox ağır idi, amma Milli Məclisin əməkdaşları və millət vəkilləri üçün yaşayış binası tikildi və 2003-cü ildə mənzil alanlardan biri də mən olmuşam. Buna görə, əlbəttə, hər zaman mərhum Prezidentə rəhmət diləyirəm. Amma düşünürəm ki, uzun illər keçib, indi iqtisadi vəziyyətimiz xeyli yaxşıdır. Hörmətli Samir müəllim də burada iştirak edir. Milli Məclisin əməkdaşları üçün mənzil tikintisinə yenə də ehtiyac var. Yəni bu alınan əmək haqqı ilə Milli Məclisin əməkdaşlarının mənzil alması çox çətindir, çox problematikdir. Ona görə də bu barədə bizim Maliyyə Nazir-

liyinin, hökumətin düşünməsinə ehtiyac var.

Burada Tahir müəllim Milli Məclisin özünün televiziyasının olması ilə bağlı məsələ qaldırdı. Bu, bütün sivil dövlətlərdə, bütün dünyada var və parlamentlərin iclasları nəinki translyasiya olunur, hətta bir müddətdən sonra təkrar verilir ki, baxa bilməyənlər ikinci dəfə izləsinlər. O halda, hesab edirəm ki, ictimaiyyət də bizim fəaliyyətimiz haqqında daha ətraflı məlumat əldə edə bilər.

Oqtay müəllim, bir də ezamiyyə xərcləri ilə bağlı deyildi. Mən Samir müəllimə komitə iclasından sonra yaxınlaşdım, ona söylədim. Məsələn, NATO Parlament Assambleyasının iclasına bu dəfə bizdən cəmi bir nəfər gedə bildi. Halbuki orada 5 komitə var və əsas məsələlər də komitələrdə müzakirə olunur. Niyə? Çünki Kanadada keçirilirdi, məsafə çox uzaq idi. Həqiqətən də, xərclər həddindən artıq baha başa gəlir. Xarici siyasətin həyata keçirilməsində bizim Azərbaycan parlamentinin müstəsna rolu var, hətta mən sizə deyim ki, əvəzolunmaz rolu var və özümüzü tərifləmək kimi çıxmasın, hesab edirəm ki, parlament xarici siyasətin həyata keçirilməsində Xarici İşlər Nazirliyindən daha çox iş görür. O baxımdan bizim ezamiyyə xərclərinin artırılmasına da çox böyük ehtiyac var. Çox xahiş edirəm ki, Samir müəllim bunu hökumətin diqqətinə çatdırsın və bu istiqamətdə də bizim xərclər artırılsın. Amma ümumən, mən, dediyim kimi, layihəyə səs verəcəyəm. Sağ olun.

**Sədrlik edən.** Sağ olun. Firudin müəllimin çıxışında, gördünüz ki, bu məsələlər, ezamiyyə xərcləri qeydə alınıb. Zahid Oruc.

**Z.Oruc.** Çox təşəkkür edirəm, cənab Sədr. Hörmətli həmkarlar, mən burada millət vəkillərinin qaldırdığı bir çox məsələni müdafiə etmək istəyirəm. Birinci növbədə,

gerçəkdən də 10 il, 15 il parlamentin üzvü olanlar çox yaxşı bilirlər ki, ötən dövr ərzində Milli Məclis, sadəcə, siyasi tərkib olaraq güclənməyib, bu dövr ərzində ölkənin ictimai-siyasi həyatında öz mövqelərini artırıb, dövlət quruculuğunda hakimiyyətin mühüm bir qoluna çevrilib. Eyni zamanda, bina, inzibati, texniki, resurs baxımından da dəyişib, bu onun zahiri simasında da görünür. Bu, təqdir olunan hadisədir və cənab Sədr, bu münasibətlə Sizi də təbrik etməyə dəyər ki, həqiqətən, zamanında bir parlament üzvünün normal kabinet şəraitində əyləşməsi belə mümkün deyildi.

İkinci tərəfdən, parlament üzvünün maaşı ilə bağlı məsələ ictimaiyyətdə, mediada, sosial şəbəkələrdə həssaslıqla qarşılanır. Başa düşüləndir. Həm Milli Məclis, həm də parlament üzvləri müəyyən mənada  sanki dövlətə olan hücumların, elə bil, qarşısındadır. Kimsə desə ki, gəlin, bunu 50 faiz azaldaq, yaxud bunu minimum yaşayış faizinə çatdıraq, bu, ucuz populizm olar. Doğrudanmı, kimsə düşünür ki, bu, belə yaxşı olacaq? Yəni dünya parlamentlərinin iş müqayisələrinin əleyhinəyik. Mən xatırlamıram ki, Milli Məclisdə kimsə artırılma ilə bağlı xüsusi tələblərlə çıxış etsin, lakin hər dəfə bir məsələni irəli sürüb, bunun ətrafında xüsusi  ictimai kampaniyalar aparırlar. Amma reallıq ondan ibarətdir ki, parlament üzvləri kifayət qədər yüksək anlayışlı və mədəniyyətli insanlardırlar, onlar qəbul edirlər ki, cəmiyyətin digər bütün təbəqələri ilə proporsionallığı gözləmək lazımdır.

Mən dedim, dəyişikliklər var və bu, təqdir olunan hadisədir. Amma təbii ki, zaman da öz düzəlişlərini eləyir. Məsələn, cənab Sədr, bir zamanlar parlament üçün bu monitorlar yararlı idi. Elektron hökumət, elektron parlament modelindən danışdılar. Uzun müddət Avropa Birliyi ilə də

bir layihə həyata keçirilirdi. Amma bunlar, sadəcə, monitordur, cansız, mən deyərdim, 10 faiz funksiyanı həyata keçirirlər. Kağız dövriyyəsindən imtina eləmək, həm də müəyyən xərclərə qənaət eləmək üçün bu monitorları diriltmək olar. Məncə, bu, texniki olaraq o qədər də çətin olmaz. Bunun bəlkə ana platasını dəyişərlər. Bu da bir qədər kompüter funksiyasını yerinə yetirər ki, bir çox sənədləri, hətta fikirlərimizi, tezislərimizi, çıxışlarımızı da bura yerləşdirə bilərik. Olsun, əgər bundan kompüter, noutbuk kimi istifadə eləmək bir qədər təhlükə doğurarsa və bu da işdən yayınmağa səbəb olarsa, onu da düşünmək olar.

Burada Milli Məclis Aparatı haqqında söz söyləndi. Gerçəkdən, Səfa müəllim bu illər ərzində həm parlament üzvlərinə münasibətdə, həm bütövlükdə işin qurulmasında peşəkarlıq göstərir. Aparatın hər bir üzvü səmimidir, çox sadədir, istənilən məsələyə reaksiya verəndir. Amma bunların içərisində ən ağır zəhmətin sahiblərindən biri, məncə, sürücülərdir. Mən ötən il bu gün belə bir məsələni xatırlamışdım. Nazirlər Kabinetində, Prezident Administrasiyasında sürücülərlə bağlı vahid bir meyar tətbiq edilsin, təsnifat hamı üçün eyni olsun. Onlar bunu sadə bir şəkildə, bizim kimi hüquqi, siyasi mülahizələrlə təhlil eləmirlər, öz həmkarlarından soruşurlar, maaş müqayisəsini aparırlar və bir qədər bədbinləşirlər ki, onlarda niyə belədir. Amma onlar da dediyimiz o böyük, ağır işləri görməkdədirlər.

Əlavə nə təkliflərim var? Bu müddət ərzində parlament təkcə qanun istehsalçısı olmayıb, mən görmüşəm ki, eləcə də uşaqlar, məktəblilər, yaşlı insanlarımız, hətta tələbələrimiz parlamenti gəlib yaxından izləyə biliblər. Mən çoxlu sərgilərin keçirildiyini görmüşəm, bu, çox təqdir olunan hadisələrdir. Biz Bundestaqda olanda gəlib şəffaf şüşələrdən iclas salonunu izləyirdilər, Azərbaycan parlamen-

tində də belədir. Bu Məclis xalqın üzünə açıqdır. Bu, çox təqdir olunan hadisələrdir. Amma parlamentin müxtəlif layihələri həyata keçirməsi üçün özünün büdcəsində vəsait olmalıdır. Mən çox arzulayıram ki, bir vaxtlar xarici yardımlar hesabına həyata keçirilən gənclər parlamenti, uşaq parlamenti layihələrini Milli Məclis özü həyata keçirsin. Bizə bəllidir ki, gələcəkdə cəmiyyətin hər bir təbəqəsini də bu prosesə hazırlamaq lazımdır. Bu, idarəçiliyin mühüm bir qoludur. Ona görə mən düşünürəm ki, bu təkliflər Milli Məclisin işinin təşkilinə xidmət edir.

Parlament televiziyası məsələsini həll etmək resurs, maliyyə baxımından çox çətindirsə, mövcud olan televiziyaların biri ilə müqavilə bağlamaq olar ki, burada deyilən o təhriflər baş verməsin, sonra da ictimai hücumlar yaranmasın.

**Sədrlik edən**. Sağ olun. Fəzail Ağamalı.

**F.Ağamalı**. Təşəkkür edirəm, hörmətli cənab Sədr. Firudin müəllimin təqdimatından göründüyü kimi, keçən ilə nisbətən növbəti ilin büdcəsində müəyyən dəyişikliklər olub. Əlbəttə, bu, yaxşı haldır. Komitələr səviyyəsində apardığımız müzakirələrdə biz Milli Məclis Aparatının xərclərinin və bu xərclərin tərkibində ezamiyyət xərclərinin də artırılmasını hörmətli nazir Samir Şərifovun diqqətinə çatdırdıq. Ondan da xahiş etdik ki, bu məsələni nəzərə alsın. Müəyyən dərəcədə nəzərə alınıb.

Oqtay müəllim, etiraf eləyək ki, son illər Azərbaycan parlamentinin dünya miqyasında hörməti və nüfuzu xeyli dərəcədə artıb. Parlament assambleyaları ilə münasibətlər yüksək səviyyədə qurulub. Dünya səviyyəsində elə bir parlament qrupu yoxdur ki, Azərbaycan onun üzvü olmasın. Azərbaycan parlamenti, eyni zamanda, ayrı-ayrı ölkələrin parlamentləri ilə sıx əməkdaşlığı gücləndirir və bi-

zim bu sahədə, doğrudan da, ciddi uğurlarımız var. Əlbəttə, bu uğurlarla kifayətlənmək olmaz. Deyildiyi kimi, biz həm parlamentdə, həm də ayrı-ayrı ölkələrin parlament qrupları ilə fəaliyyətimizi daha yüksək, daha intensiv səviyyədə qurmalıyıq. Çünki bu, Azərbaycanın nüfuzu kimi, onun dünya miqyasında gedən proseslərdə yer alması kimi, anti-Azərbaycan qüvvələrinin ölkəmizə qarşı hücumlarının, erməni təbliğatının qarşısının alınması kimi və sair ciddi zərurətdən irəli gəlir. Ona görə də mənə elə gəlir ki, bu il artırılan 200 min manat ezamiyyə xərcləri kifayət deyil. Hər kəsin özünün mövqeyi ola bilər, mən şəxsən öz adımdan hörmətli Samir müəllimdən xahiş edirəm ki, bunun miqdarı ən az 2 dəfə – 400–500 min manat səviyyəsində artırılsın. Çünki burada konyunktura yoxdur. Burada Azərbaycan dövlətinə xidmət kimi ulu bir məqsəd var. Ona görə də mən buna xüsusi diqqət verməyi xahiş edirəm.

İkincisi, Milli Məclisin nəqliyyat parkı dəyişdirilməlidir. Burada müasir maşınlar olmalıdır. Bildiyiniz kimi, Azərbaycana parlament xətti ilə çoxlu qonaq gəlir. Eyni zamanda, bəzən millət vəkillərinə də belə maşınlar lazım olur, bunların yenilənməsinə ciddi ehtiyac var, bu da diqqətdən yayınmalı deyil.

Hörmətli həmkarlarımın televiziya ilə, Aparatın işçilərinin əmək haqlarının artırılması ilə bağlı fikirlərinə tamamilə şərikəm, məncə, bunlar hökmən həyata keçirilməlidir. Eyni zamanda, Aparatda elə işçilər var ki, onların evləri yoxdur, bu məsələyə də baxmaq lazımdır. Elə etmək lazımdır ki, Milli Məclis bütün potensialını, gücünü ancaq parlamentdəki fəaliyyətinə həsr eləyə bilsin. Diqqətinizə görə təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun, Fəzail müəllim. 200 min manat ezamiyyə xərcini, nəzərdə tutulan ezamiyyə xərcinə əlavə-

ləri söylədiniz. Həmin o əlavə xərclər də hesablanır. Fazil Mustafa.

**F.Mustafa**. Təşəkkür edirəm, Oqtay müəllim. Burada bu məsələyə münasibət bildirməzdən öncə bir məsələyə aydınlıq gətirim. Vahid müəllim də dedi, biz də şəhid ailələrinin təmsilçiləri ilə görüşdük. Keçən dəfə də izahat vermişdik, burada, təbii, əsas məsələ budur ki, onlarla müəyyən sığorta qurumu arasında olan məsələnin çözülməsi vacibdir və onlar da ucdantutma təxribatçı adlandırıldıqlarına görə daha çox etiraz edirdilər. Mənim də fikrim odur ki, bu insanların arasında təxribatçı, fırıldaqçı, şəhid adından istifadə eləyən varsa, bunu hüquq mühafizə orqanları araşdırıb ortaya qoyarlar. Amma müəyyən məmurların televiziyada, başqa yerlərdə onları bu cür adlandırması yaxşı deyil. Çünki bütün hallarda, hətta vəsaiti almış olsa belə, nəsə bir iddia ilə çıxış edirsə, bu, şəhid ailəsidir, ayrı kateqoriyadır, həssas insanlardır, onlarla danışıqda, məncə, ehtiyatlı olmaq çox vacibdir. Ölkə Prezidenti də böyük bir comərdlik edərək, böyük bir təşəbbüs göstərərək, ilk fərmanını bu istiqamətdə verib. Bunun da həyata keçirilməsi üçün, bu gözəl təşəbbüsü yekunlaşdırmaq üçün məmurlar daha sağlam mühakimə ilə məsələni həll eləməlidirlər.

İkincisi, büdcə ilə bağlı məsələdə, mən hesab edirəm ki, Milli Məclis bəlkə də büdcəyə ən az yük gətirən qurumdur, o baxımdan ki, Milli Məclisin üzvlərinin böyük əksəriyyəti nəqliyyatdan da istifadə eləmirlər, onun xərclərinə də hansısa yük gətirmirlər. Öz şəxsi avtomobilləri var, görüşlərini də öz vəsaitləri hesabına keçirirlər. Hər halda bunlar böyük məsrəflərdir. Milli Məclisin vəsaitinin artırılması, Aparat işçilərinin maaşının qaldırılması, həqiqətən, yaxşı olardı.

Mən başqa bir vacib məsələyə toxunmaq istəyirəm. Biz büdcədən AzTV-ə də müəyyən vəsait ayırırıq. Təqdimatda Milli Məclis sanki rəhbərlik və komitələrdən ibarətdir. Komitə sədrlərinin təqdimatı verilir, bu təqdimatda filan qanun müzakirəyə çıxarıldı, sonra da konkret 5–6 adamın adı çəkilir ki, filankəslər də məruzə ətrafında çıxış elədilər. Milli Məclis haqqında özümüz elə təsəvvür yaradırıq ki, sosial şəbəkədə, mətbuatda özümüz özümüzü söydürürük, yaxud tənqid elətdiririk. Niyə? Çünki izləyən olmur, bilinsin ki, burada söhbət ən az tənqiddən getmir. Burada Milli Məclisin istər YAP-dan olan deputatları, istər başqa müxalif partiyadan olan deputatları hər hansı bir problemlə bağlı fikir bildirirlər. Orada hansı isə qızışdırıcı bir fikir varsa, hansı isə narahatçılıq doğuran rəqəm varsa, onları vermə, anladıq, amma heç olmasa, çıxışlardan sitatlar olsun. AzTV niyə bunu verməsin? Dövlətdən, büdcədən bu qədər vəsait alır. Televiziya – başa düşdük, real deyil, televiziya imkanları böyük məsrəflər tələb eləyir, olmasın.

Oqtay müəllim, biz indi büdcəni müzakirə edəndə, Nazirlər Kabinetinin hesabatını müzakirə edəndə neçə gün vaxt sərf edirik, doğrudurmu? Bunu da bir saatlıq verilişdə yayımlamağa çalışırlar. Heç olmasa, büdcə müzakirəsini normal şəkildə təqdim elə, görülsün. Milli Məclisi cəmiyyətdə elə qələmə verirlər ki, sanki burada xalqı, dövləti düşünən insan yoxdur, ancaq öz maraqlarını düşünürlər. Amma burada onlarca çıxış olur ki, hər kəs öz sağlam fikirlərini söyləyir. Niyə çəkinməliyik? Bunun təbliği özümüzə də lazımdır axı. İctimai TV, ümumiyyətlə, bizimlə bağlı heç nə vermir. AzTV bu yükü götürə bilmirsə, heç olmasa, İctimai TV xəbərlərdə Milli Məclisdən 2–3 dəqiqə reportaj versin. Dövlət büdcəsindən pul ayrılıb.

Azərbaycanda, ola bilər ki, hansı isə qurum onun işinin təbliğ olunmasını öz missiyası kimi görməsin?

Oqtay müəllim, bir şeyi də xahiş edirəm. Bu televiziyalar rəsmi qeydiyyatdan keçmiş televiziyalardır. Biz bunu televiziyada görünmək xatirinə eləmirik. Əl çəkmirlər, müsahibə almaq, hansısa bir problemlə bağlı deputatın izahını vermək istəyirlər. Milli Məclisin dəhlizində müsahibə veririk. Soyuq şəraitdə, yağışlı havada məcbur oluruq, Milli Məclisin qarşısında dayanırıq. Heç olmasa, buna da hansısa formada bir yol tapılmalıdır ki, fikirlərimizi çatdıranda içəri alınmasınlar, hansısa otaq müəyyən olunsun. Mətbuatdır da, biz deputat olaraq mətbuatla işləmək məcburiyyətindəyik. Bu məsələni də həll etmək, mənə elə gəlir ki, yaxşı olardı. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Mən hər çıxışa cavab vermək istəmirəm, amma televiziyada bizim deputatlardan çox deputat yoxdur. Hər dəfə televiziyanı açanda bizim deputatlar çıxışlar edirlər, fikirlərini bildirirlər. Heç onlardan danışan olmadı. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm. Hörmətli Sədr, hörmətli deputatlar! Mən də Firudin müəllimin təqdim etdiyi layihəyə səs verəcəyəm. Təbii ki, arzular çoxdur, amma hər bir arzunun reallaşması qeyri-mümkündür. Gərək elə arzular reallaşsın ki, onların əhəmiyyəti olsun, xeyir gətirsin.

Oqtay müəllim, mənim konkret olaraq bir neçə təklifim var. Milli Məclisin işi üçün, ümumilikdə hamının işi üçün yararlı olan bir məsələdir. Mən hesab edirəm ki, büdcədən vəsait bir az da artırılmalı və Milli Məclisdə bir dil qrupu, şöbə yaradılmalıdır. Niyə yaradılmalıdır? Beynəlxalq əlaqələr şöbəsinin və digər şöbələrin öz işi var. Qanun gəlir, müqavilə gəlir və bəzi hallarda biz görürük ki, bunlar çox bərbad vəziyyətdədir. Bəzən rus dilindən,

yaxud da ingilis dilindən tərcümə eləyib, necə var, elə də göndərirlər. Həm Azərbaycan, həm ingilis, həm də rus dillərində yaxşı mütəxəssislər yığışmalı, redaktə etməlidir və təqdim etməlidir ki, Milli Məclisin adından gedən hər bir sənəd mükəmməl olsun. Bax, bu, əsas şərtlərdən biridir. Bu, məsələnin birinci tərəfi.

Məsələnin ikinci tərəfi odur ki, keçmişdə Milli Məclisin tərkibində sosioloji sorğu mərkəzi var idi. Təbii ki, Milli Məclisin fəaliyyəti göz qarşısındadır. Hamı bilir, cənab Prezident də çox sağ olsun, bizim fəaliyyətimizi çox yüksək qiymətləndirdi. Amma ictimaiyyətin münasibəti necədir? Biz bunu bilirikmi? Yox. Heç olmasa, ayda bir dəfə sorğu keçirilsin, 5-10 nəfərdən ibarət mütəxəssislər cəlb olunub bu sorğunu keçirsinlər ki, Milli Məclisin bu işindən ictimaiyyət razıdır, bu işindən narazıdır. Hamımız deyirik ki, seçicilər bizi dəstəkləyir, bizimlə razıdırlar. Olsun, amma ümumilikdə, bunun yoxlama şəklində aparılması vacib olan elementlərdən biridir. Dünya praktikasında, Amerika Konqresindən başlamış bütün konqreslərdə bu cür mərkəzlər fəaliyyət göstərir və çox ciddi təhlillər aparırlar.

Üçüncü məsələ – hamının yanıqlı yeri olan məsələyə mən də qayıdıram. Ezamiyyə xərcləri məsələsi. Oqtay müəllim, deyirsiniz, tutaq ki, 5 fərqli ölkədə parlament buraxıldı. Firudin müəllim planlaşdırıb ki, 20 ezamiyyət olacaq və bu ezamiyyələrə bu qədər pul xərclənəcək, bu qədər də sərf olunacaq. Bizi orada müşahidəçi kimi iştirak etməyə dəvət edirlər. Biz haradan bilək ki, sabah hansısa bir ölkədə yenidən parlament seçkiləri, prezident seçkiləri keçirilməyəcək?

İkinci tərəfdən, bizim artıq 40-dan çox dostluq qrupu ilə qarşılıqlı münasibətlərimiz var. O birilərin tərkibində

3–4 nəfər var, məndə Çindir. Əhalinin sayı milyard yarımdır, gələndə, heç olmasa, 15 nəfər gəlir, o qədər dəvət edirlər. Məcburiyyət qarşısında qalırıq. Ya apara bilmirik, ya o qədər sayda dəvət edə bilmirik. Bunlar hamısı hesablanmalıdır, götür-qoy edilməlidir, planlaşdırılmalıdır. Artıq qalar, büdcənin özünə qaytararıq. Büdcəyə nəzarət var, bu mexanizm işləyir, fəaliyyət göstərir.

Ən əsası da odur ki, Milli Məclisin əməkdaşlarının əmək haqları ilə bağlı məsələ mütləq öz həllini tapmalıdır. Çünki gecə-gündüz işləyirlər, bütün tədbirləri keçirirlər. Ola bilər, ayrı-ayrı nazirliklərə 3–5 nəfər və ya çox qonaq gəlir. Mətbuatdan da izləyirik, hər yerdən də görünür ki, Milli Məclisə, demək olar ki, gündəlik qonaqlar, ayrı-ayrı parlament üzvləri, işçilər gəlir. Onların qarşılanması, yerləşdirilməsi, sənədlərin hazırlanması var və sair. Burada nə var ki? Demirik ki, bu pulu verin, biz xərcləyək. Biz deyirik ki, bu pulu zəhmət çəkən, işləyən insanlara ayırın, onlar da öz əziyyətinin bəhrəsini görməlidirlər. Təşəkkür edirəm.

**Sədrlik edən**. Sağ olun. Aytən Mustafazadə.

**A.Mustafazadə**. Təşəkkür edirəm, hörmətli Sədr. Hörmətli Oqtay müəllim, hörmətli Firudin müəllim, mən sözümü sizə təşəkkürlə başlamaq istəyirəm. Çünki 1 il öncə mən öz çıxışımda Sizdən xahiş eləmişdim ki, infrastrukturda dəyişikliklər edilsin ki, fiziki imkanları məhdud adamlar da bura rahat gələ bilsinlər. Çox sağ olun, təşəkkür edirəm. Bu işlər çox tez, operativ surətdə həll olundu və biz parlamentin 100 illiyində də gördük ki, Avstriyadan əlil arabasında olan millət vəkili çox rahatlıqla zala daxil ola bildi. Pilləkənlərin yanında panduslar qurulub. Əlillər üçün imkan var ki, parlamentin binasına qalxsınlar və komitə iclaslarında iştirak eləsinlər. Bir də

sizə təşəkkür edirəm.

İkinci məsələ – mən həmkar deputatlarımın xahişini, təklifini dəstəkləyirəm, Azərbaycanda parlamentin televiziyası olmalıdır. Əhalinin xəbəri yoxdur ki, bizim ATƏT Parlament Assambleyasında, NATO-da iştirak edən nümayəndələrimiz, heyətimiz, dostluq qrupları və sair necə gedirlər, necə iş aparırlar, necə zəhmət çəkirlər, çıxışlar edirlər. İnternetdə hansısa cüzi məlumat gedir, ya televiziyada AŞPA-da olan hansısa çıxışı bir dəfə görməklə o təsəvvür yaranmır. Amma bu böyük işlərin aparılması, zəhmətin sərf olunması görülməlidir. Bu, həm intellektual, həm də fiziki zəhmətdir və eyni zamanda, bizim ümumi işimizə çox böyük siyasi töhfədir. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. Qənirə Paşayeva.

**Q.Paşayeva.** Hörmətli cənab Sədr, hörmətli millət vəkilləri, hökumət üzvləri! Mən bu mövzu ilə bağlı fikirlərimi söyləməzdən öncə çox xahiş edərək bir məsələni diqqətə çatdırmaq istəyirəm. Çünki təxminən 40 dəqiqədir ki, Milli Məclisin önündə şəhid ailələrimiz toplaşıblar və millət vəkillərindən xahiş edirlər ki, bu məsələni bir daha parlamentdə qaldıraraq hökumətimizdən xahiş etsinlər. Onların, demək olar ki, əksəriyyəti cənab Prezidentdən çox böyük razılıq edirlər, cənab Prezidentin bu addımını çox yüksək qiymətləndirirlər, şəhid ailələrinə verilən dəyəri anladıqlarını, Prezidentin bu addımını çox gözəl qəbul etdiklərini söyləyirlər. Şəhid ailələrinə ayrılan o vəsait onlar üçün çox önəmlidir.

Əslində, ortada olan fikir bundan ibarətdir ki, biz də o vəsaiti almaq istəyirik. 11 min manat vəsait bizim də həyatımız üçün çox önəmlidir. Biz şəhid polislər ilə digər şəhidlərin arasında fərq qoyulmasını istəmirik. Bəziləri deyir, bəlkə də o zaman almışıq, amma çox cüzi vəsait

idi. Bu gün 11 min manat bizim həyatımız üçün çox önəmli bir vəsaitdir, buna ehtiyacımız var. Bəziləri deyir ki, təkrar baxılsın, mən almamışam, araşdırılsın, görək bu vəsait necə olub. Bəlkə hökumətimiz bu məsələni bir də diqqətdən keçirər. Bu ailələrə də həmin vəsaitin verilməsi bu kimi məsələləri tamamilə həll edər. Mən görürdüm ki, orada bəzi kameralar var idi. O kameraların kimlər tərəfindən göndərildiyini də bilmirik. Bəzi xarici güclər var ki, bəlkə də bu məsələlərdən istifadə etmək, orada olan məsələləri bir az da qabardaraq dünyaya çıxarmaq və sair istəyirlər. Ona görə mənə elə gəlir ki, bu mövzuların qısa zamanda tamamilə həll edilməsi müsbət bir addım olardı. Bu ailələrin əsas məqsədi, xahişi odur ki, cənab Prezident belə bir jest eləyib, şəhid ailələrinə qayğı göstərib, biz də bu müddət ərzində o vəsaitdən yararlanaq, bu məsələ ilə bağlı xahiş edirik. 40 dəqiqədir, onlar millət vəkillərindən xahiş edirlər ki, hökumət üzvlərindən bu məsələni xahiş edək, təkrar baxsınlar. Biz də onların xahişini diqqətə çatdırmağı özümüzə borc bildik.

Parlamentimizlə bağlı məsələyə gəlincə, parlamentimiz çox böyük işlər görür. Özəlliklə parlamentimizin beynəlxalq əlaqələr sahəsində beynəlxalq təşkilatlarda, ölkəmizin təbliği istiqamətində qurduğu əlaqələrlə bağlı gördüyü işlər ortadadır. Mən, sadəcə, bir məsələyə diqqəti ayıracağam ki, bizim Azərbaycan heyəti müxtəlif beynəlxalq təşkilatlarda təmsil olunur. Bizim üçün çox ağrılı hadisələrin ildönümü oldu. 1948-ci ildə Ermənistandakı soydaşlarımızın tarixi ata-baba yurdlarından didərgin salınmasının 70 illiyidir, 1988-ci ildə etnik təmizləmə siyasəti nəticəsində qovulmasının 30 illiyidir. Beynəlxalq təşkilatlarda belə təcrübələr olur. Biz Avropa Şurasında bunu görmüşük. Sərgilər, müəyyən tədbirlər təşkil etmək olur. Parla-

mentin bu mövzuları beynəlxalq təşkilatlarda, informasiya müharibəsində bir az daha qabarıq şəkildə daha çox diqqətə çatdırması  üçün də vəsaitin ayrılması yaxşı olardı.

Həmkarlarımın qaldırdığı məsələyə gəlincə, əslində cənab Sədrimiz də vurğuladı, televiziyalar bizi ayrı-ayrı proqramlara  dəvət edir, gedirik,  televiziyaların müəyyənləşdirdiyi mövzular ətrafında müzakirələrdə iştirak edirik. Amma söhbət özəlliklə dövlət televiziyasında və ictimai televiziyamızda, büdcədən vəsait alan televiziyalarımızda qəbul olunan qanunların çatdırılması ilə bağlı proqramlardan gedir. Burada qanunlar qəbul olunur, əlavə və dəyişikliklər edilir ki, bunları cəmiyyət bilməlidir. Bəzən insanlar məlumatsız olduqlarından öz hüquqlarını da bilmirlər. Müraciətlərdən görürsünüz ki, demək, hansı isə vətəndaşımızın bu qanundan,  yaxud bu əlavə və dəyişiklikdən xəbəri yoxdur. Biz – deputatlar, əslində bu verilişləri özümüz üçün istəmirik, cəmiyyətimiz üçün istəyirik ki, insanlarımız daha çox maarifləndirilsin. Cəmiyyətimiz burada qəbul olunan qanunlarla, layihələrlə, sənədlərlə, əlavə və düzəlişlərlə bağlı daha məlumatlı olarsa, o zaman müəyyən problemlər də öz həllini daha  tez tapar. Hüquqlarını bilirlər, müraciətlər azalır. Ona görə  bu məsələyə də...

**Sədrlik edən.** Sağ olun. Hörmətli millət vəkilləri, bu məsələləri ayın 30-da səsə qoyacağam. İndi gündəliyin 7-ci məsələsinə keçək. Azərbaycan Respublikası Hesablama Palatasının xərclər smetası haqqında buyursun Vüqar Gülməmmədov.

**V.Gülməmmədov,** *Azərbaycan Respublikası Hesablama Palatasının sədri.*

Təşəkkür edirəm, cənab Sədr. Hörmətli millət vəkilləri, məlumunuz olduğu kimi, “Hesablama Palatası haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq

Hesablama Palatası xərclər smetasını Milli Məclisin növbəti iclasına təqdim etmişdir. Təqdim edilmiş layihəyə əsasən 2019-cu ildə Azərbaycan Respublikası Hesablama Palatasının saxlanması üçün 4 milyon 368 min 941 manat vəsait planlaşdırılır. Bu vəsait 2018-ci ilin proqnoz göstəricisindən təqribən 6,5 faiz çoxdur. Artım, əsasən, bəzi yardımçı dövlət qulluqçularının inzibati təsnifat üzrə yerdəyişməsindən irəli gəlir və yanacağın qiyməti ilə bağlıdır. Eyni zamanda, deyim ki, təqdim olunmuş layihə üzrə məbləğin, yəni 4 milyon 368 min 941 manatın təqribən 84,3 faizi əməyin ödənişi ilə bağlı xərclərdən ibarətdir. Digər xərclərlə bağlı təqdim edilən layihədə daha geniş məlumatlar var. Ona görə də hörmətli millət vəkillərindən Hesablama Palatasının xərclər smetasını dəstəkləməyi xahiş edirəm. Təşəkkür edirəm.

**Sədrlik edən.** Çox sağ olun. Hörmətli millət vəkilləri, biz büdcə sənədləri üzrə məsələləri bitirdik. Hökumətə vaxt veririk, növbəti iclasımız noyabrın 23-də olacaq, ondan sonra ikinci səsvermə, ikinci oxunuş və ayın 30-da son iclasımız olacaq. İndi hökumətə vaxt veririk.

Samir müəllim, çox sağ olun, gəldiniz, millət vəkillərinin də təkliflərini eşitdiniz. Hesabatları sizə verəcəklər. Sağ olun.

Gündəliyimizdə növbəti 4 məsələ. Gündəliyin 8-ci məsələsi Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsində dəyişiklik edilməsi haqqında qanun layihəsi, ikinci oxunuşdur. Buyursun Əli Hüseynli.

**Ə.Hüseynli,** *Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri.*

Çox sağ olun, hörmətli cənab Sədr. Cənab Sədr, icazə versəniz, 8, 9 və 10-cu məsələlərlə bağlı birgə məlumat verərdim, çünki bir-biri ilə bağlı məsələlərdir.

Hörmətli həmkarlar! Bildiyiniz kimi, Konstitusiyada edilmiş dəyişiklikdən və “Normativ hüquqi aktlar haqqında” Qanunun tələblərindən irəli gələrək bizim komitəyə Milli Məclisin Daxili Nizamnaməsində dəyişiklik edilməsi haqqında qanun layihəsinin işlənib hazırlanması ilə bağlı tapşırıq və tövsiyə verilmişdir. Məhz bu tapşırıq və tövsiyə əsasında komitəmiz tərəfindən Nizamnamənin Azərbaycan Respublikasının Konstitusiyasına, “Normativ hüquqi aktlar haqqında” Konstitusiya Qanununa, “İctimai iştirakçılıq haqqında” Qanuna və “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Qanuna uyğunlaşdırılması ilə bağlı qanun layihəsi hazırlanıb sizin diqqətinizə təqdim olunmuşdur. Qeyd etməliyəm ki, həm komitədə, həm də Milli Məclisin plenar iclasında müzakirələr zamanı mövcud konstruksiyadan kənarda olan təkliflər də daxil olmuşdur. Amma xüsusi olaraq qeyd etmək istəyirəm ki, bizim üzərimizə qoyulan vəzifə Nizamnaməni məhz sadaladığım Konstitusiya qanununa, qanuna və Konstitusiyaya uyğunlaşdırmaqdan ibarət olub. Bu baxımdan, Nizamnamə ilə bağlı tamamilə yeni fikirlər, yeni yanaşmalar var, onlara hörmətlə yanaşırıq, amma onlar qanun layihəsi formasında Milli Məclisin Aparatına təqdim olunmalıdır. Bu məsələni ona görə vurğulayıram ki, birinci oxunuş zamanı da müzakirə edilmiş məsələyə diqqətlə baxsanız, onun böyük əksəriyyətinin uyğunlaşdırmadan ibarət olduğunu görərsiniz.

Yeni məsələ Nizamnamənin 23-cü maddəsi ilə bağlı idi – İntizam komissiyasının fəaliyyətinə həsr olunan maddədir. Onunla da bağlı qeyd etmək istəyirəm ki, Milli Məclis deputatının mandatdan məhrum edilməsi ilə bağlı qərarın qəbul edilməsi, əslində, bizim qanunvericilikdə artıq həllini tapıb. Yəni zamanında biz etik davranış qaydalarını

qəbul etdikdən sonra Seçki Məcəlləsində də dəyişiklik oldu və bu məsələ həllini tapıb. Seçki Məcəlləsinin 175.3-cü maddəsində qeyd edilir ki, Konstitusiyanın 89-cu maddəsinin I hissəsinin 2, 4, 5, 6, 7-ci bəndlərinin, yəni etik davranış qaydalarının kobud şəkildə pozulması halları olduqda deputatın mandatdan məhrum edilməsi haqqında qərar Mərkəzi Seçki Komissiyası tərəfindən qəbul olunur. Bu baxımdan hörmətli həmkarlarımın bu məsələnin İntizam komissiyasının rəyindən sonra Milli Məclisin qərarı ilə həll olunması yanaşmasını qəbul edə bilmərik. Bu, ziddiyyətli bir məsələdir və artıq qüvvədə olan qanuna da ziddir. Amma zamanında xatırlayırsınızsa, məhz sizlərin təklifi ilə bu hallarda məhkəmə müdafiəsi mexanizminin yaradılması işçi qrupu tərəfindən müsbət qəbul olundu və həllini tapdı. Mərkəzi Seçki Komissiyasının bu barədə qərarı həmin qərardan 10 gün müddətində apellyasiya instansiyasına şikayətə verilməsi ilə nəticələnə bilər. Həmin şikayətə 15 gün müddətində baxılmalıdır. Apellyasiya məhkəməsinin qərarından isə 10 gün müddətində Ali Məhkəməyə şikayət verilə bilər. Bu məsələyə də 15 gün müddətində baxılmalıdır. Beləliklə, deputatın mandatdan məhrum edilməsi ilə bağlı müdafiə mexanizmi də yaranır. Yeganə boşluq bu məsələyə İntizam komissiyasında necə baxılması məsələsidir, biz bunu indi həll edirik və həllinin başqa yolu da yoxdur. Bununla bağlı Nizamnaməyə 23-cü maddə təklif olunmuşdur.

Hörmətli həmkarlar! Biz Milli Məclis rəhbərliyinin, eyni zamanda, sizlərin İntizam komissiyasının tərkibi ilə bağlı söylənmiş fikirlərinizi dəstəkləyirik. Bilirsiniz ki, hazırda tərkib 9 nəfərdən ibarətdir. Bir sıra təkliflər daxil olmuşdu. Bu, əlbəttə, müzakirə mövzusu ola bilər. Bu təklifləri nəzərə alaraq belə qərara gəlmişik ki, İntizam ko-

missiyasının tərkibinin 11 nəfərdən ibarət olması, bu halda iclasın keçirilməsi üçün 7 nəfərin iştirakı, müvafiq rəyin qəbulu üçün 6 üzvün iştirakı nəzərdə tutula bilər. Yəni belə bir konstruksiya təklif edirik. Yenə deyirəm, fəsil-fəsil müzakirə edəndə buna münasibət bildirmək mümkündür.

Eyni zamanda, müzakirələr zamanı bir sıra maddələrlə bağlı təkliflər də daxil olmuşdu. Misal üçün, deputatın məsələsinə baxılarkən iclasda iştirakdan özü imtina edirsə, onun iştirakı olmadan baxılmalıdır. Belə bir təklif olmuşdur. Amma bir daha vurğulamaq istəyirəm, mövcud maddə, hesab edirəm, zamanında kifayət qədər dəqiq yazılıb. “İştirakı mümkün olmadıqda” – dedikdə onun başqa səbəblərlə yanaşı imtina etməsi də nəzərdə tutulmuşdur. Yəni iştirakın mümkün olmaması bütün halları onsuz da nəzərdə tutur. Yəni biz bu məsələni dilçi alimlərlə də bir daha məsləhətləşmişik. Amma mövcud variantda da belədir.

Eyni zamanda, işçi qrupu hesab edir ki, hazırda Milli Məclisdə kifayət qədər ciddi nizam-intizam mövcuddur və hesab edirik ki, bu iclaslarda iştirak yüksək səviyyədədir. Amma bununla yanaşı, işçi qrupu hesab edir ki, “deputat fasilədən sonra üzürsüz səbəbdən qeydiyyatdan keçmədikdə həmin iclasda iştirak etməmiş hesab edilsin” – müddəasının əlavə olunması məqsədəmüvafiq olardı.

Həmçinin millət vəkillərinin ayrı-ayrı xərclərlə bağlı deyil, maddələrlə bağlı bir sıra texniki, dil, üslub təklifləri də olmuşdur. Misal üçün, müzakirələrdə “dinləmə” və “müzakirə” ifadələri ilə bağlı Qüdrət müəllimin təklifi olmuşdu. Sizə paylanmış variantda olmasa da, işçi qrupu onu nəzərdə tutur. Həmçinin Musa müəllim Baş prokurorun təqdimatı ilə bağlı təklif etmişdi ki, Baş prokurorun səlahiyyətli nümayəndəsi də burada çıxış edə bilər.

O məsələ də hələ müzakirə mövzusudur.

Amma deputatın Milli Məclisin iclasında yalnız Azərbaycan dilində danışması ilə bağlı və ümumiyyətlə, Azərbaycan dili ilə bağlı vurğulamaq istəyirəm ki, bu məsələ Konstitusiyanın 21-ci maddəsində, eləcə də "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Qanunun 5-ci maddəsində öz həllini tapıb. Yəni dövlət əhalinin danışdığı başqa dillərin sərbəst işlənilməsinə və inkişafına təminat verir. Bu baxımdan, Nizamnaməmizdə indiyə qədər mövcud olan quruluş tamamilə yerində və düzgündür.

Milli Məclisin komitə iclasında və plenar iclasında hüquqşünasların fərqli yanaşmaları olmuşdu. Hörmətli həmkarlarımın bir daha diqqətinə çatdırmaq istəyirəm ki, "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununun 1-ci maddəsinə görə, "normativ hüquqi akta dəyişikliklərin edilməsi" dedikdə, yəni "dəyişiklik" ifadəsində normativ hüquqi akta onun müddəalarının mətnini dəyişən və ya əlavə normaların daxil edilməsi nəzərdə tutulur. Yəni əlavə yolu ilə dəyişdik. Bu, "Normativ hüquqi aktlar haqqında" Qanunda artıq var. Təsadüfi deyil ki, 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumda da Azərbaycan Respublikasının Referendum Aktının adı "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" oldu. Əvvəllər "əlavə və dəyişiklik" deyilirdi, indi "dəyişiklik edilməsi haqqında"dır. Çünki "əlavə" sözünü də tam ehtiva etmiş olur.

Hörmətli həmkarlar! "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunla bağlı hesab edirəm ki, hər hansı bir narahatlıq mövcud olmamalıdır. Çünki bu Qanuna edilən dəyişiklik "etik davranış qaydası" ifadəsinin Deputatın statusu haqqında Qanunda öz əksini tapmasıdır. Burada hər hansı ciddi təkliflər müzakirə pred-

meti olmamışdır.

Üçüncü sənəd isə “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Qanuna edilmiş təkliflərdir. Bu, komitədə ciddi müzakirə predmeti olmuşdu, birinci oxunuş zamanı məlumatlandırdım. Azərbaycanın üzv olduğu Avropa Şurasının QREQO təşkilatının tövsiyələri ilə bunu etmişik. Orada 2 məsələ öz həllini tapır. Bu, hədiyyə almaqla və maraqların toqquşması ilə bağlı məsələlərdir. Xüsusi vurğulamaq istəyirəm ki, bu müddəalar “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunda mövcuddur. Bir sıra məsələlərin dəqiqləşməsi və “Korrupsiyaya qarşı mübarizə haqqında” Qanunun bir sıra müddəalarının Deputatın etik davranış qaydaları haqqında Qanuna köçürülməsi ilə bağlı olmuş təkliflərdir. Sizə deyim ki, parlamentdə zamanında “Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında” Qanunun müzakirəsi çox ciddi polemikalara səbəb olmuşdu deyə, biz o təkliflərin üzərində dayanmadıq. Amma bizim beynəlxalq əməkdaşlığımız var, korrupsiyaya qarşı QREQO təşkilatı ilə əməkdaşlıq mövcuddur. Təşkilatın verdiyi tövsiyələrdir, Azərbaycan Respublikasının Korrupsiyaya qarşı mübarizə komissiyası da parlamentə bununla bağlı müraciət etmişdi. Komissiyanın katibinin iştirakı ilə komitədə buna baxılıb və komitə bu məsələ ilə bağlı tam yekdil bir mövqedə idi. Hədiyyələrin alınması və maraqların toqquşması ilə bağlı məsələlərlə əlaqədar hesab edirəm ki, artıq mübahisə yaranmamalıdır. Amma Nizamnamə ilə bağlı fikirləri çatdırdım.

Onu da qeyd etmək istəyirəm ki, işçi qrupu, bizim komitə, şəxsən mən komitə sədrlərinə məsələ ilə bağlı arayışlar təqdim etmişik. Amma yenə də hər bir komitə ilə, komitə sədri ilə görüşüb bir daha təklifləri dinləməyə

hazırıq. Eyni zamanda, indi ikinci oxunuş zamanı fəsil-fəsil təklifləri də diqqətlə nəzərdən keçirəcəyik. Bir daha xüsusi vurğulamaq istəyirəm, bu qanun, yəni İntizam komissiyasının formalaşması ilə bağlı məsələlər əsas etibarı ilə uyğunlaşdırma xarakteri daşıyır. Sonda onu da söyləmək istəyirəm ki, əlbəttə, biz burada İntizam komissiyasının tərkibi ilə bağlı təklifinizi nəzərə alırıq, amma onu da qeyd etməliyəm ki, gələcəkdə İntizam komissiyasının əsasnaməsi, katibliyi olmalıdır və elə məsələlər var ki, onlar öz həllini Nizamnamədə deyil, gələcəkdə İntizam komissiyasının əsasnaməsində tapmalıdır. Diqqətinizə görə çox sağ olun.

**Sədrlik edən.** Çox sağ olun, Əli müəllim. İndi müzakirələrə başlayırıq. Hörmətli millət vəkilləri, mən birinci onu söyləmək istəyirəm ki, bu qanun layihəsini artıq səsə qoymuşuq, birinci oxunuşda qəbul etmişik və əsas məqsəd burada edilən dəyişiklikləri normativ hüquqi aktlarda olan dəyişikliklərə uyğunlaşdırmaqdır. Ona görə xahiş edirəm, çıxışlarda da təkrarçılıq etməyək. Bu istiqamətdə çıxış edək. İndi xahiş edirəm, qanun layihəsinə əsas kimi münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.02 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, əsas kimi qəbul edildi.
Buyursun Qüdrət Həsənquliyev.

**Q.Həsənquliyev.** Təşəkkür edirəm, cənab Sədr. Mənim bu məsələ ilə bağlı fikrim bəllidir. Mən həm komitə müzakirələri zamanı, həm də birinci oxunuşda bu məsələyə münasibət bildirmişəm. İndi ikinci oxunuşdur, biz bu məsələni daha əhatəli və ciddi şəkildə müzakirə edirik. Ona görə də burada daha çox diqqəti deputatın başqasının əvəzinə səs verməyə görə deputat mandatından məhrum olunması, bir də etik davranış qaydasını kobud formada pozmasına görə yenə mandatdan məhrum olunması məsələsinin üzərinə gətirmək istəyirəm. 2016-cı ildə biz Konstitusiyaya əlavə və dəyişikliklər etdik. Bu müddəaları Konstitusiyaya daxil etdik. Amma bizim bu gün qüvvədə olan Konstitusiyamızda qeyd olunmayıb ki, etik davranış qaydasının kobud formada pozulması mütləq intizam məsuliyyəti yaradır, yaxud başqasının əvəzinə səs vermək intizam məsuliyyəti yaradır. Hesab edirəm ki, başqasının əvəzinə səs vermək səsvermənin nəticələrinin saxtalaşdırılmasına cəhddir və bu bizim Cinayət Məcəlləsi ilə təqib olunan əməldir. Vaxtı ilə Amerika Birləşmiş Ştatlarında bir səs çoxluğu ilə qərar qəbul olunub ki, dövlət dili alman dili deyil, ingilis dili olsun. Səhər parlamentdə də elə bir vəziyyət yarana bilər ki, bir səs nəyi isə həll edə bilər. Ona görə də başqasının əvəzinə səs vermək cinayət əməlidir, yəni səsvermənin nəticələrini saxtalaşdırmaq cəhdidir və biz hər iki əməli intizam məsuliyyəti kimi deyil, cinayət əməli kimi hüquqi qaydada, tövsif etməliyik, yəni bunları təqib etməliyik. Bu, artıq bizdən asılıdır. Konstitusiya bizə demir ki, siz onu mütləq intizam məsuliyyətinə cəlb edib mandatdan məhrum etməlisiniz.

İkincisi, bizim Cinayət Məcəlləsində xuliqanlıq maddəsi var. Orada da qeyd olunur ki, “cəmiyyətə açıqca hörmətsizlikdə ifadə olunan qərəzli hərəkətlər...” Sonra iza-

hını verir. Yəni kim istəyirsə, gedib bütün hüquq ədəbiyyatını oxusun. Mənim ixtisasımdır, mən sizə səmimi şəkildə deyirəm ki, "cəmiyyətə açıqca hörmətsizlikdə ifadə olunan qərəzli hərəkətlər", qabağında "etik davranış qaydalarının kobud formada pozulması" yazılır. Yəni biz bunu bir cinayət əməli kimi tövsif etməliyik. Əgər belə hal baş verirsə, prokurorluq təqdimat verməlidir. Tutaq ki, biz onun toxunulmazlıq hüququnu aradan qaldırmalıyıq və bundan sonra cinayət hüququ təqibi başlanmalıdır, məhkəmənin qanuni qüvvəyə minmiş qərarından sonra da deputat mandatdan məhrum olunmalıdır.

Bunu Konstitusiyanın fəlsəfəsi də tələb edir. Bizim Konstitusiyanın 7-ci maddəsi "Azərbaycan dövləti" adlanır və həmin maddədə qeyd olunub ki, Azərbaycanda dövlət hakimiyyəti hakimiyyətlərin bölgüsü prinsipi əsasında həyata keçirilir və məhkəmə, qanunvericilik, icra hakimiyyəti qarşılıqlı əlaqədə fəaliyyət göstərir və səlahiyyətləri çərçivəsində müstəqildirlər. İndi mən burada oturan deputat həmkarlarımdan soruşuram: Biz cənab Prezidenti intizam məsuliyyətinə cəlb etməklə səlahiyyətindən, vəzifəsindən kənarlaşdıra bilərik? Bu, gülmədidir. Sözsüz ki, yox. Belə olduğu halda, hakimiyyətin digər qanadının təmsilçilərini intizam məsuliyyətinə cəlb etməklə hakimiyyətdən, vəzifəsindən kənarlaşdırmaq nə dərəcə doğrudur? Sözsüz ki, doğru deyil. Ona görə də biz əvvəlcə hakimləri intizam məsuliyyətinə cəlb etməklə vəzifəsindən kənarlaşdırılması praktikasını tətbiq etdik, indi də artıq deputatlara tətbiq edirik. Bu, hakimiyyətin bölgüsü prinsipinə, bizim Konstitusiyanın ruhuna ziddir. O baxımdan mən hesab edirəm ki, biz bu müddəanı daxil edə bilmərik. Onlar cinayət əməli kimi qeyd olunmalıdır. Deputat da, hakim də yalnız cinayət törətdikdə digər pro-

sedur qaydalara uyğun olaraq vəzifələrindən kənarlaşdırıla bilərlər.

Allah rəhmət etsin, mərhum Prezident Heydər Əliyevin dövründə əvvəl Konstitusiyada yazılmışdı ki, Prezident ağır cinayət törətdikdə ona impiçment proseduru başladıla bilər, deputat və hakim isə cinayət törətdikdə vəzifəsindən kənarlaşdırıla bilər. Ona görə də mən hesab edirəm ki, bu bizim Konstitusiyanın ruhuna ziddir. Bunu etmək olmaz.

İkincisi, burada deputat cinayət törədərkən onun toxunulmazlıq hüququnun aradan qaldırılması ilə bağlı da qeyd olunub ki, "o iştirak edə bilmədikdə". Bu cür yazılmamalıdır, birmənalı yazılmalıdır ki, "əgər özü iştirak etməkdən imtina edirsə". Bu, başqa məsələdir. Amma deputata hər bir halda imkan yaradılmalıdır ki, əgər o, cinayətdə ittiham olunursa, qoy, gəlsin, deputat həmkarları qarşısında, Milli Məclis qarşısında çıxış etsin, öz fikrini, mövqeyini izah etsin. Ona görə də mən hesab edirəm ki, bu iki məsələ çox prinsipial məsələlərdir və bu iki məsələdə biz həm ölkənin imicini nəzərdə tutmalıyıq, həm də Konstitusiyanın fəlsəfəsinə uyğun davranmalıyıq.

**Sədrlik edən.** Hörmətli Qüdrət müəllim, Konstitusiyadan çox danışırıq. İndi mənim bir sualım var. Referendumda qəbul olunmuş akt Konstitusiyanın tərkib hissəsi sayılır? Sayılır. Referendumda etika, qanun normalarının pozulması ilə bağlı olan bu məsələni qəbul etmişik? Onda biz nədən danışırıq? Mən yenə deyirəm, sən etik normalardan danışdın, özü də həmişə Konstitusiyaya istinad edirsən. İkinci məsələni də həmişə qaldırırdınız ki, nəyə görə bu səlahiyyətlər Mərkəzi Seçki Komissiyasında qalmalıdır? Konstitusiyanın 89-cu maddəsi var, orada bütün bu səlahiyyətlər vaxtı ilə Mərkəzi Seçki Komissiyasına verilib. Orada baxın, suallara cavablar olacaq.

Çingiz Qənizadə buyursun.

**Ç.Qənizadə.** Təşəkkür edirəm, hörmətli Sədr. Hörmətli həmkarlarım, komitə iclasında bu qanun layihəsi ilə bağlı ətraflı və geniş müzakirələr aparılmışdır. Hörmətli komitə sədri Əli müəllimin qeyd etdiyi kimi, müxtəlif təkliflər, rəylər nəzərə alınmış və bugünkü oxunuşa təkrar çıxarılmışdır. Mən komitə iclasında da öz fikrimi bildirmişəm və bu qanunu mahiyyət etibarı ilə tam dəstəkləmişəm. Təbii ki, komitə iclasında müxtəlif təkliflər və qanuna uyğunluqla bağlı redaktə xarakterli fikirlər söylənilə bilər. Mənim də belə fikirlərimdən birinin, çox təəssüf ki, bilərəkdən, qərəzli şəkildə başqa cür şərh edilməsinə cəhd göstərilmişdir. Mən bir daha mövzuya qayıdıram. Bu qanun tam şəkildə, 2016-cı il sentyabrın 26-da referendum yolu ilə qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" Azərbaycan Respublikasının Referendum Aktına, "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Qanununun ruhuna və tələbinə tam uyğundur.

Burada 3 qanun layihəsi müzakirəyə təqdim edildi. Ona görə mən elə yeri gəlmişkən, o biri layihələrlə də bağlı fikrimi qeyd etmək istəyirəm. Milli Məclis haqqında qanunvericiliyin təkmilləşdirilməsinin vacibliyi bizdən tələb edir ki, biz bu gün "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Qanunun tətbiqi ilə bağlı məsələni gündəliyə çıxaraq. Hörmətli Əli müəllim qeyd etdi və müxtəlif maddələrə fikrini bildirdi, cənab Sədr, Siz də dediniz və Konstitusiyada qəbul olunursa, artıq, təbii ki, biz bu qanun layihələrini uyğunlaşdırmalı və qəbul etməliyik.

Komitədə müzakirə zamanı narahatlıq doğuran bəzi maddələrə tam aydınlıq gətirildi. Mən qeyd etmək istəyi-

rəm ki, Milli Məclisin deputatının toxunulmazlığına xitam verilməsi ilə bağlı 22-ci maddədə, – bu, əvvəllər də var idi, – belə hesab edirəm ki, hər hansı bir narahatlığa əsas yoxdur. Amma indi hörmətli Qüdrət müəllim də bu məsələni qaldırdı, 22-ci maddənin yeni əlavəsini – "deputat iclasda iştirakdan imtina etdikdə və ya iclasda iştirakı mümkün olmadıqda, bu məsələyə onun iştirakı olmadan baxıla bilər" – məsələsini qeyd etmək istəyirəm. Ola bilər ki, deputat onunla bağlı İntizam komissiyasının qaldırdığı məsələdə iştirak etmək istəmir, yaxud da bilir ki, qərar olacaq, onun xətası var, ümumiyyətlə, çıxıb gedib, xaricdə istirahətdədir. Milli Məclis nə etməlidir? Gözləməlidir ki, o nə vaxt gələcək? Sonra gəlib bir "bolniçnı" da açacaq, 3 ay da yalandan evdə xəstə kimi qalacaq və bu proses uzanacaq. Ona görə biz müzakirələr zamanı "mümkün olmadıqda" dedikdə, məhz bu hissəsini nəzərdə tutmuşuq. Qanunun 23-cü maddəsindəki deputatlıqdan məhrum edilmə ilə bağlı məsələ Konstitusiyanın 89-cu maddəsinin 1-ci bəndində öz əksini tapıb və orada 4, 6 və 7-ci bəndlər əvvəllər də var idi. Burada 4-cü bəndə əsasən deputat vəzifə tutduqda o, dövlət qulluğunda, təbii ki, deputat kimi fəaliyyət göstərə bilməz. Özü imtina edə bilər.

Amma 93.3-cü maddəni biz 2016-cı il sentyabrın 26-da Konstitusiyaya saldıq və adam danışmaq istəmir. O dəqiqə jurnalistlər bunu başqa cür yozurlar. Biz burada görürdük ki, Aparatda olan texniki işçilər gəlib bizim yerimizə barmaqla səs verirdilər. Bu, parlamentin nüfuzuna bir az xələl gətirir və çox doğru olaraq Konstitusiyaya salındı ki, hər kəs səsvermə hüququndan özü istifadə etsin, bu hüququ həyata keçirsin. Buna görə də belə hesab edirəm ki, əgər kimə isə, yəni hansı isə texniki işçiyə, hansı isə fotoqrafa arxayın olub parlamentin iclasında iştirak etmək əvə-

zinə, gedib şəxsi işi ilə məşğul olursa, onda birdəfəlik öz şəxsi işi ilə məşğul olmalıdır. Belə hesab edirəm ki, bizə, bizim parlamentin işinə və statusumuza hörmət əlaməti olaraq biz bu qanunu, bu bəndi müdafiə etməliyik.

45-ci maddə ilə bağlı qeyd etmək istəyirəm ki, burada parlamentin iclaslarında neçə dəfə iştirak etməməkdən söhbət gedir. Kifayət qədər imkan verilibdir. Üzrsüz səbəbdən dalbadal 4 dəfə və ya bir ayda 6 dəfədən artıq iştirak etməmək nə deməkdir? Bu, laqeydlikdir. Biz ən azı buradan əmək haqqı alırıq və bu işə normal gedib-gəlməliyik. Kim bunu istəmirsə, getsin, özünün başqa sahədəki fəaliyyətləri ilə məşğul olsun və biz onlara uğurlar arzulayırıq.

Burada günün ikinci yarısı ilə bağlı bir təklif oldu. Ziyafət müəllim, mən bu təklifi dəstəkləyirəm və belə hesab edirəm ki, saat 12-də qeydiyyatdan keçib, saat 4-də gedib Şəmkirdə və ya Gəncədə yeyib-içən millət vəkilləri bilməlidirlər ki, saat 4-də yenə bura qayıtmalıdırlar və burada qeydiyyatdan keçməlidirlər. Ona görə burada bəhanə axtarmağa heç bir ehtiyac görmürəm. Çox maraqlıdır ki, bununla bağlı olan səsvermədə iştirak edən və sair intizamlı deputatlar narahatlıq keçirirlər. Özü də onlar həmişə burada olurlar. Ona görə hesab edirəm ki, burada hər hansı bir problem axtarmağa dəyməz.

Mən artıq danışmaq istərdim, amma vaxtım az olduğundan imkan yoxdur, ona görə təqdim olunan hər üç qanun layihəsini dəstəkləyirəm və həmkarlarıma da müraciət edirəm ki, biz bu qanun layihələrini dəstəkləməklə deputatın statusunu da, deputatın adını da qorumuş olacağıq.

Bir şeyi də deyim. Bir dəqiqə. Biz tədbirlərə gedirik, hamımız umuruq ki, qabaq cərgədə bizə yer versinlər, hətta verilməyəndə küsürük, amma biz o cərgədə oturub, o

statusa, döşümüzdəki bu nişana uyğun etik davranış göstərməliyik və bəzən bunu göstərməyən həmkarlarımız da var. Ona görə belə hesab edirəm ki, bu bizim özümüzün də məsuliyyətimizi artıracaq və parlamentin ümumi işinə fayda gətirəcək. Təşəkkür edirəm.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun, Çingiz müəllim. Fərəc Quliyev.

**F.Quliyev.** Sağ olun, hörmətli Ziyafət müəllim. Mən çıxışıma birinci, dil məsələsindən başlamaq istəyirəm. Keçən dəfə burada məsələ qaldırmışdım ki, çıxışlar yalnız Azərbaycan dilində olmalıdır. Təbii, sənəddə göstərilib ki, başqa dildə çıxış ola bilər. Mən hesab edirəm ki, burada yalnız Azərbaycan dilində, yəni dövlət dilində danışılmalıdır. Əlbəttə, Azərbaycan tolerant bir dövlətdir, burada bütün mədəniyyətlərə, bütün dinlərə, bütün etnoslara hörmət olunur və hər kəsi də vətənçilik birləşdirir. İctimai ünsiyyət zamanı hansı dildə danışılmasına kim irad tutur ki? Amma bura parlamentdir və təbii ki, bu sənədə hörmət göstərməliyik. Bu, ciddi məsələdir.

Barak Obamanın dönəmində Amerikada invaziv növlərdən qorunmaq haqqında qanun qəbul olunmuşdu. Orada bir mədəniyyətin başqa bir mədəniyyətə, ölkə mədəniyyətinə kütləvi şəkildə daxil olması o mədəniyyətin dayaqlarını sarsıtmaq kimi qiymətləndirilmişdi. Mən bunu niyə xüsusi olaraq qeyd edirəm?! Mən bu məsələyə bir dəfə də toxunmuşdum. Məsələn, Azərbaycanda 200-dən çox rus məktəbi var idi. Bu məsələləri qaldırdıq ki, biz bütün dil-

lərin öyrənilməsinin tərəfdarıyıq, amma onlar xarici dil təmayüllü məktəblər kimi qalıb. Rus, ingilis, italyan, başqa dilləri də öyrətsinlər, amma rus dilli məktəb kimi qalması doğru deyil. Mən bunu nə üçün deyirəm?! Bu gün, misal üçün, Rusiyada Dumanın aşağı qurumlarında bir məsələ müzakirə olunur ki, keçmiş postsovet ölkələrində, keçmiş SSRİ ərazisində olan hər bir adam rus dilini bilirsə, rus dilində danışırsa, Rusiya vətəndaşı pasportu ala bilər. Bu onların daxili işidir. Amma eyni zamanda, onların qanununda qeyd olunub ki, dünyanın harasında Rusiya vətəndaşı varsa və hüquqları tapdalanırsa, Rusiya istənilən vasitə ilə ora müdaxilə imkanı da qazanır. O mənada biz o invaziv növlərin, invaziv mədəniyyətlərin qəbulu, öz mədəniyyətimizin qorunması ilə bağlı olaraq nümunəni parlamentdə göstərməliyik və parlamentdə çıxışlar, məncə, yalnız və yalnız dövlət dilində olmalıdır.

Etik qaydalarla bağlı, doğrudur, dostlarımız bəzi məsələlərə toxundular. Mən hesab edirəm ki, buradakı insanlar seçilmiş, özünə hörmət edən adamlardılar. Heç qanunu bir tərəfə qoyaq, sosial şəbəkələrə, mətbuat vasitələrinə baxın, görün. Çox fərqli yanaşmalar var. Biz özümüzü niyə urvatdan salınmış vəziyyətdə göstərməliyik ki? Elə şeylər var, heç onları  irad tutmuruq ki. Hər kəs davranışını da, hərəkətlərini də bilir.

Qaldı ki deputatın cinayət törətməsi ilə bağlı məsələ, qayda-qanun var idi, Baş prokurorluq  müraciət edir, o məsələ parlamentdə müzakirə edilir və münasibət bildirilirdi. İndi isə cinayətdən yüngül olan bir hal olur, bir hadisə baş verir, 11 nəfər bu məsələni həll edir, amma parlamentdə səsverməyə çıxarılmır, müzakirə olunmur. Məncə, bu, doğru yanaşma deyil. Konstitusiyada 91-ci maddə var idi. Orada da deputatın fəaliyyətinə görə məsuliyyət daşı-

madığı göstərilir. İstər etik, istərsə də qeyri-etik olsun, səsverməsi, çıxışı, təhqiramiz fikirlər söyləməsi və sair olsun, bura parlamentdir, fərqli fikirlər söylənilən yerdir.

Çıxışlarda 8-ci maddəyə, başqa maddələrə istinad olundu və MSK ilə bağlı fikirlər səsləndi. MSK orada texniki məsələlər qoyubdur – deputat işini dəyişdikdə, bir yerə getdikdə və sair. Texniki cəhətdən deputatın səlahiyyətləri ilə bağlı olaraq MSK məsələyə müdaxilə edə bilər. Mən bütün həmkarlarımın çıxışlarına hörmətlə yanaşıram və bilmirəm, bu qanun layihəsi haradan peyda olubdur. Hər halda mən hesab edirəm ki, bu qanun layihəsi – deputatın həddindən artıq, deyək ki, urvatdan salınması onun statusuna qarşı bir hörmətsizlik, aşağılanması haqqında qanun kimi qəbul olunacaqdır. Artıq bu istiqamətdə də müzakirələr gedir. Hesab edirəm ki, bu qanuna yenidən baxılması və ümumiyyətlə, bunun gündəlikdən çıxarılması daha vacibdir. Mən buna səs verməyəcəyəm, deputat həmkarlarımı da buna səs verməməyə çağırıram. Təşəkkür edirəm.

**Sədrlik edən.** Sağ olun. İlham Əliyev.

**İ.Əliyev**. Təşəkkür edirəm, Ziyafət müəllim. Mən bilirəm ki, bu, ikinci oxunuşdur, bu qanun layihəsi ilə birinci oxunuşda tanış olmuşuq. Sadəcə, bir neçə gündür məndə bir sual yaranıb. Mən istəyirəm, fürsətdən istifadə edim, o sualı hörmətli Əli müəllimə verim. Əli müəllim, birinci hissədə qeydiyyatdan keçib iştirak edən millət vəkili əgər ikinci hissədə üzrlü səbəbdən iştirak etmirsə, bu üzrlü səbəbi parlamentə, yaxud müvafiq komitəyə necə bildirə bilər? Çünki bu zalda əyləşən millət vəkilləri bilir ki, bəzən hansı isə bir tədbirə dəvət olunuruq və günün ikinci hissəsində o təbirdə iştirak etməliyik. Bəs biz necə çatdırmalıyıq ki, üzrlü səbəbdən iştirak etməmişik? Təşəkkür edirəm.

Bir şeyi də deyim ki, ikinci hissədə kimin harada iştirak etməsinin heç kimə dəxli yoxdur. Hər bir deputat özünə cavabdehdir.

**Sədrlik edən.** Sağ olun. Əflatun Amaşov.

**Ə.Amaşov.** Çox sağ olun, hörmətli Ziyafət müəllim. Hörmətli deputatlar, əziz media nümayəndələri! Mən "Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Qanunda dəyişikliklə bağlı danışmaq istərdim. 10-cu maddədə olan dəyişiklikdə hədiyyə almaqla bağlı məhdudiyyətlərdən bəhs olunur, yəni deputat vəzifəsinin icrası ilə əlaqədar ümumi məbləği 55 manatdan yuxarı hədiyyə qəbul edə bilməz. Mən də belə qənaətdəyəm ki, bu məbləğ kifayət qədər azdır. Çünki başqa ölkələrdə bu rəqəm dəfələrlə böyükdür. Ancaq nə etməli? Gərək əvvəlcə "Korrupsiyaya qarşı mübarizə haqqında" Qanunda bu rəqəmi dəyişək, məhz orada həmin məbləğin artması ilə bağlı təklif irəli sürək. Belə olarsa, bu problemimiz öz həllini tapacaq.

O ki qaldı maraqların toqquşmasının qarşısının alınması məsələsi, düşünürəm ki, bu, çox vacibdir. Əlbəttə, heç bir deputat səlahiyyətlərinin icrası çərçivəsində statusundan öz maraqları üçün istifadə etməməlidir, xidməti vəzifəsinin icrası ilə maraqları arasında ziddiyyət yarananda maraqlarından imtina etməlidir və sair. Burada deyilənlər ayrı-ayrı ölkələrdə çoxdan qəbul olunub. Özü də çox sərt formada. Böyük Britaniyada bəzən elə olur ki, deputat parlamentin yeməkxanasında belə xərclədiyi məbləğin hesabatını verməlidir. Almaniyada deputat cinayətdə ittiham edilirsə, onu elə iclas salonunda həbs eləyirlər. Elə ölkələr də var ki, deputat seçiciləri ilə görüşməsə, onlarla kobud davransa, ictimai yerdə özünü qeyri-etik aparsa, hətta parlamentdə çıxış etməsə, onu çox ağır cəza gözləyir.

Əslində, hörmətli Əli müəllimin rəhbərlik etdiyi komitədə təklif edilən düzəlişlərin hazırlanmasından əvvəl beynəlxalq təcrübəni kifayət qədər öyrəniblər. Necə deyərlər, onların suyunu sıxıb çıxararaq bu düzəlişləri hazırlayıblar. Həmin beynəlxalq təcrübədə gəlir bəyannaməsi əsas şərtlərdən biri kimi göstərilir.

Hörmətli Ziyafət müəllim, istərdim ki, gəlir bəyannaməsinin tətbiqini bu dəfə olmasa da, – yəqin ki, artıq gecdir, – növbəti dəfə gündəmə gətirək və qəbul edək. Bunun üçün qanunvericilik bazamız da mövcuddur. Belə olarsa, həm cəmiyyətə nümunə olarıq, həm də digər sahələrdə gəlir bəyannaməsinin tətbiqi sürətlənər və növbəti Zəminə Hacıyevalar olmaz. O ki qaldı parlamentdə dil məsələsinə, mən də hesab edirəm ki, parlamentdə dil, əsasən, Azərbaycan dili olmalıdır, yoxsa kənarda bizim müstəqiliyimizlə bağlı müəyyən şübhələr yarana bilər. Diqqətinizə görə sağ olun. Minnətdaram.

**Sədrlik edən**. Fazil Mustafa.

**F.Mustafa**. Təşəkkür edirəm, Ziyafət müəllim. Bu məsələ, təbii ki, neçə müddətdir, müəyyən ciddi, nəzəri mülahizələrin, mübahisələrin yaranmasına səbəb olub və hər kəsin də öz arqumenti var. Buna baxmayaraq, Konstitusiyada bir çox müddəalar var ki, ona münasibətimiz də fərqli ola bilir və razılaşıb-razılaşmama məsələsində fikirlərimizi səsləndiririk. Bu qanun mahiyyət etibarı ilə mənim də razılaşmadığım qanun olsa da, artıq ikinci oxunuşda təqdim edilib. Çoxluğun iradəsi ilə qəbul olunub. Ona görə də maddələr üzrə münasibət bildirməyi daha məqsədəuyğun hesab edirəm və fikirləşirəm ki, bu məsələlərə müəyyən aydınlıq gətirilməsi baxımından münasibət bildirməyimiz vacibdir. Xüsusilə burada nəzərdə tutulan 23-cü maddədə, – hörmətli Əli müəllimin diqqətini manda-

tın təqdim edilməsi məsələsinə cəlb eləmək istəyirəm, – deyilir ki, deputat iclasda mandatdan imtina etdikdə həmin imtina Milli Məclisin stenoqramına daxil edilsə, o, bu imtinasını geri götürə bilməz. Bu məsələlərə bir az açıqlıq gətirilməlidir, əsasnaməyə buraxılan məsələ kimi qəbul oluna bilməz. Deputat məhz “mən imtina edirəm” cümləsini işlədəndə imtina sayılır, yaxud, məsələn, biri əsəbiləşdi, çıxış elədi ki, “mən indi burada oturmaq istəmirəm”, stenoqrama düşdüsə, bu, imtina sayıla bilər. Məncə, məsələyə bir az daha dəqiq yanaşılmalıdır. Deputat yazılı surətdə imtina etdikdə, yaxud da mandatını sədarətə təhvil verdikdə bu, artıq imtina sayılır. Çıxışında əsəbi şəkildə bir söz işlədibsə, çıxışının kontekstinə uyğun olaraq bunu bu formada qiymətləndirmək nə dərəcədə məntiqlidir? Ona görə də, məncə, bu məsələni yazılı mətnə uyğunlaşdırmaq daha məqsədəuyğun olar və belə bir ciddi məsələni sadə və qeyri-müəyyən formada saxlamaq doğru deyil.

Mən İntizam komissiyasının tərkibi ilə razıyam, 11 nəfər olmalıdır. Keçən dəfə təklif eləmişdim, bu tərkibin ən azı yarısının hüquqşünaslardan ibarət olması İntizam komissiyasının səriştəsini cəmiyyətdə daha yüksək göstərə bilər. Çünki qərar qəbul eləyən insanlar bu məsələdə hüququn müəyyən normativ prosedurlarını daha yaxşı bilməlidirlər, izahat işlərində, yaxud da müzakirələrdə hüquqa istinad edərək davranmalıdırlar. Çünki burada deputatların hamısı bərarbərhüquqludur, amma müzakirə olunan məsələ peşəkarlıq baxımından bir az fərqli yöndə dəyərləndirilməlidir.

Burada “Milli Məclisin İntizam komissiyası” adlanan 41-ci maddədən “təlimlər keçmək” ifadəsinin çıxarılmasını təklif edirəm. İntizam komissiyası deputata nə təlim

keçəcək? Tövsiyələr, fikirlər, rəylər var, bunu versin. Deputatların hamısı bir-birindən savadlı, bilikli, hazırlıqlı insanlardır, bunu ifadə olaraq bir az doğru görmürəm, çıxarılmasını istəyirəm.

44-cü maddədə Hesablama Palatası ilə bağlı məsələ nəzərdə tutulur. Yazılır:

"Hesablama Palatasının üzvləri Milli Məclisin dəvəti ilə Milli Məclisin və onun komitələrinin iclaslarında iştirak edirlər". Niyə dəvəti ilə? Hesablama Palatasının üzvləri istənilən komitə iclasında öz iradəsi ilə də iştirak eləmək hüququna malikdirlər. Biz bunu da nəzərə almalıyıq. Çünki onların marağı baxımından burada iştirak məqsədəuyğun sayıla bilər.

Sonra 45-ci maddədə deyilir:

"Deputatın iclasda iştirakı mümkün olmadıqda". Mən hesab edirəm, burada "subyektiv səbəbdən iştirakı mümkün olmadıqda..." kimi ifadə olunsa, dəqiq əhatə edər, çünki obyektiv səbəbdən də iştirak eləməyə bilər. Onun izahı dəqiq verilməlidir ki, belə bir məsələ sonradan problemə çevrilməsin.

Sonra, Milli Məclisin iclasında iştirak eləməmək, ikinci hissədə qeydiyyatdan keçmədisə – bu məsələlər həllini tapmır. İlham müəllim  haqlı olaraq qeyd edir ki, bu hansı formada bildirilməlidir? Burada, heç olmasa, elektron formada olsun. Məsələn, iştirak eləmirsə, elektron formada izahı da nəzərdə tutulmalıdır. Mütləq gələ bilmirsə, yazılı formada harasa nəyisə təqdim etməklə məsələ həll olunmaya bilər və buna görə deputata hansı isə bir irad bildirmək nə dərəcədə doğrudur? Burada elektron formada, yaxud da hansı instansiyaya, kimə bildirməlidir?

*Azərbaycan Respublikası Milli Məclisinin Sədri*
***Oqtay Əsədov** sədrlik edir*

**Sədrlik edən.** Mən elə vaxtında gəldim çatdım. Hörmətli Fazil müəllim, mən oturmuşam, burada yuxarıdan hamını yaxşı görürəm. Günün birinci yarısında olanların 30 faizi ikinci yarısında yoxdur. Mən durub elan eləməli deyiləm axı. Yəni dediyim ondan ibarətdir ki, istəyirsiniz, bundan sonra günün ikinci hissəsində qeydiyyat keçirək, sonra başlayaq. Onu da fikirləşərik.

Bizim işimiz Milli Məclisdə iştirakdır, gəlin, iclasımızda iştirak eləyin. Adamlar var, gəlirlər, görürəm, aylarla günün ikinci yarısında yoxdurlar. Bir dəfə xəbərdarlıq edirsən, iki dəfə xəbərdarlıq edirsən. Sonra? Bu məsələlərə birdəfəlik son qoymaq lazımdır. Bir dəqiqə vaxt verirəm.

**F.Mustafa**. Təşəkkür edirəm. Mən bu müddəaya etiraz eləmirəm, sadəcə olaraq, etirazım odur ki, bunun forması müəyyən olunsun ki, günün birinci yarısından sonra kiminsə vəfat eləyəni, yaxud hansısa bir problemi var, bunun elektron forması və hansı ünvana çatdırılması dəqiqləşdirilməlidir. Deputat bilməlidir ki, mən günortadan sonra iştirak eləmirəm, amma obyektiv səbəbdən də olsa, bunu hər dəfə hansı formada çatdırmaq olar? Sədrin yüz işi var, qəbulu var, rəhbərliyin işi var. Bunlar da dəqiqləşsin ki, müəyyən boşluq yaranmasın, mən bunu diqqətə çatdırıram və hesab edirəm ki, bu məsələlərə aydınlıq gətirilməlidir ki, sonradan narahatlıq olmasın. Bir də töhmət məsələsinə də münasibət bildirilməlidir ki, bu töhmət nə vaxt ortadan qalxır. Yəni bu qaydanı hansısa bir qanunvericiliyə istinad eləyiriksə, oradan da bunu dəqiqləşdirib götürməliyik. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən**. Sağ olun. Siyavuş Novruzov.

**S.Novruzov**. Təşəkkür edirəm, hörmətli Sədr. Aydındır ki, müzakirə olunan məsələ çox ciddidir. Oqtay müəllim, bilirsiniz ki, mən 5 il İntizam komissiyasının sədri vəzifəsində işləmişəm. Milli Məclisin əsas hörməti onun nizam-intizamıdır. Müzakirələrdə ən çox üstünlük verilən məsələ deputatın günün birinci yarısında və ya ikinci yarısında iclasda iştirakı ilə bağlıdır. Fərqi nədir, günün ikinci yarısında qəbul olunan qanunun çəkisi birinci yarıda qəbul olunan qanunun çəkisindən aşağıdır, yoxsa hüquqi dərəcəsi azdır? Bunların hər biri eynidir. Əgər kim isə hansı isə iclasa gedirsə, məsələn, günün ikinci yarısı Müdafiə Nazirliyi bir tədbirə çağırıbsa, deputat yazılı və şifahi şəkildə parlament sədrinə müraciət eləyir və bu hal nəzərə alınır. O tədbir də vacibdir, iştirak eləmək lazımdır. Bununla da bu məsələ bitmiş hesab olunur.

İkinci tərəfdən burada dil məsələsi müzakirə olundu. Dil məsələsi ilə bağlı bizim Daxili Nizamnamədə göstərilir ki, dövlət dili Azərbaycan dilidir və Milli Məclisdə də iclaslar Azərbaycan dilində olmalıdır. Amma Azərbaycanda yaşayan digər xalqların nümayəndələri də öz dilində danışa bilər. Tutaq ki, sabah biz Dağlıq Qarabağı azad elədik və ümumi həmrəylik yarandı, ermənilər gəlib burada Azərbaycan torpağında yaşadılar və 8 nəfər erməni seçildi, gəldi, Azərbaycan parlamentində oturdu. Eləsi var ki, Azərbaycan dilini bilir, eləsi də var ki, bilmir. Hansı dildə danışmalıdır? Azərbaycanda yaşayan xalqlar var ki, onların nümayəndələri seçilir, seçki yoluyladır da, başqa yolla deyil ki, seçilib, gəlib, burada iştirak edir. Ona da hüquq verilməlidir ki, yaşadığı ölkənin vətəndaşı olmaqla yanaşı, o dili bilməklə yanaşı, öz dilində də çıxış etmək hüququ olsun. Bu, Daxili Nizamnamədə də var.

Bir məsələ də narahatedici məsələdir. Söhbət ondan gedir ki, azərbaycanlı olub, Azərbaycan dilini bilməyən məcburən Azərbaycan dilini öyrənib, burada Azərbaycan dilində danışmalıdır. Vəssəlam. Qalan insanlara bunu tətbiq etmək olmaz.

**Yerdən.** *(Eşidilmir.)*

**S.Novruzov.** Xahiş edirəm, sakitliyə riayət eləyək. Digər tərəfdən, burada intizam məsələsini, hədiyyə məsələsini müzakirə edirik.

Oqtay müəllim, xahiş edirəm, şərait yaradın, çıxış eləyim.

Hədiyyə məsələsinə gəldikdə, təbii ki, bu məsələ Amerika Birləşmiş Ştatlarında, dünyanın hər yerində mövcuddur. Burada söhbət hər hansı nümayəndənin verdiyi hədiyyədən gedir. Tutaq ki, biz hansısa parlamentə gedirik, hədiyyə təqdim edirik, yaxud o parlament qruplarının üzvləri bizə bir hədiyyə təqdim edirlər. Amerika Birləşmiş Ştatlarında belədir ki, əgər hədiyyənin dəyəri 300 dollardan aşağıdırsa, onu evinə apara bilər, 300 dollardan yuxarıdırsa, o, parlamentdə qalmalıdır. Bu, çox gözəl, ədalətli bir qanundur. Amma biz o vaxt bunu müəyyələşdirəndə Azərbaycan manatı avro ilə eyni idi. O vaxtkı 70 avro, indi manatla 35 avro olub. Allah eləsin, Azərbaycan manatı güclənsin. Biz gələcəkdə elə bir ekvivalent müəyyənləşdirməliyik ki, bu, uyğun gəlsin. Sabah ola bilər ki, 1 avro oldu, vəssəlam. Ola da bilər, bunu heç kəs deyə bilməz. Lirənin düşdüyü vəziyyətə baxın. Bizim daxili səbəblərimizlə əlaqəli deyil, xarici iqtisadiyyata təsir edən, bizdən asılı olmayan səbəblərdəndir. Bu baxımdan, buna da düzəliş edilsə, hesab edirəm ki, düzgün olar. Ümumilikdə, mən bu qanunun tətəfdarıyam və buna da səs verəcəyəm.

**Sədrlik edən.** Sağ olun. Mən Sizin dediyiniz dil məsələsi ilə razı deyiləm. Azərbaycan parlamenti Azər-

baycanındır, Azərbaycan dili dövlət dilidir. Erməni olmasın, kim olur-olsun, bu dili bilib, gəlib oturmalıdır. Mən burada nə erməni dilindən, nə də başqa dildən tərcüməçi oturtmalı deyiləm ki.

Vaxtı ilə oturmuşdu. İndi o vaxt deyil. Burada olan ermənilərin hamısı Azərbaycan dilini yaxşı bilirlər. Kim dövlət dilini bilmirsə, burada oturmasının mənası yoxdur. Gərək yanında tərcüməçi olsun. Tahir Rzayev.

**T.Rzayev.** Çox sağ olun, hörmətli Sədr.  Sözsüz ki, mən təqdim olunmuş bu qanun layihələrinin lehinə səs verəcəyəm. Çünki bu, bilavasitə biz deputatların xeyrinədir, parlamentin nüfuzu üçün çox vacib sənədlərdir. Mən iki məsələyə münasibət bildirmək istəyirəm. Bunlardan biri – deputat qeydiyyatdan keçmirsə, o, iclasda iştirak etməmiş hesab olunur.  Elə bilirəm ki, burada müəyyən dürüstləşdirmə aparılmalıdır. Ola bilər ki, deputat, misal üçün, 2 dəqiqə iclasa gecikdi, ya düyməni basarkən müəyyən səhv oldu. Ancaq o, iclasın 3 saat 50 dəqiqəsində iştirak edirsə, o, necə iclasda iştirak etməmiş hesab edilə bilər? Ona görə də orada dəqiqləşdirilmə aparılsın. Deputat iclasda qəbul olunan bu qanunların yarısının səsverməsində iştirak etmirsə, onun iclasda iştirak etməmiş hesab olunması fikri, elə bilirəm, bu qanunda öz əksini tapsa, yaxşı olar. Çünki o, 1–2 dəqiqə geciksə də, qanunların əksəriyyətinin müzakirəsində iştirak edir. Bu, düzgün olmazdı.

Digər bir məsələ etik davranış qaydaları ilə əlaqədardır. Etik davranış qaydalarının pozulması müxtəlif formalarda ola bilər. Dosta salam verməmək də, hündürdən danışmaq da, dostun sözünü kəsmək də, kimi isə təhqir etmək də, cəmiyyətdə insanın şəxsiyyətinə ziyan vurmaq da etik davranış qaydalarını pozmaqdır. Ona görə elə bilirəm ki, bunlar  bu qanunda müəyyən qaydada  öz əksini tapmalı-

dırlar. Deputat haradasa salam vermirsə, etik davranış qaydasını pozmuş olur və bu, məsuliyyətə səbəb olsun? Elə bilirəm ki, qanunda bunlar dəqiqləşdirilməlidir. Çox sağ olun.

**Sədrlik edən.** Bu, qanunda dəqiqləşdirilib. Söhbət qanunu kobud şəkildə pozmaqdan gedir, salam verməkdən getmir. O ki qaldı deputatların qeydiyyatdan keçməsinə, hamınız yaxşı bilirsiniz, deputatlar hələ iclasa gəlməmişdən qabaq siyahılar bilinir ki, kim iştirak edəcək, kim etməyəcək, gecikən də olanda qeydiyyata alınır. Milli Məclisdə heç bir deputat qeydiyyatsız qalmır. Təlatümü hamınız tanıyırsınız. Onun işçiləri də bütün günü Milli Məclisdə işin gedişatı ilə məşğuldurlar, bu qeydiyyatı aparırlar.

Mən görürəm ki, siyahı getdikcə böyüməyə başlayır.

**Yerdən.** *(Eşidilmir.)*

**Sədrlik edən.** Səsə qoyaq, sonra Daxili Nizamnaməni deyərsən. 3 qanun layihəsi təqdim olundu. Gündəliyin 8-ci məsələsi Nizamnamə ilə əlaqədardır, 26 maddədən ibarətdir. Birinci qanun layihəsi, bunları maddə-maddə bölək. 6 maddə birgə, qalanını 10-10 maddələrə bölək. Xahiş edirəm, 1–6-cı maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
|---|---|
| Lehinə | 92 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 7–16-cı maddələrə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.40 dəq.) |
| Lehinə | 88 |
| Əleyhinə | 4 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 93 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. 17–26-cı maddələrə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 91 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 95 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İndi isə qanun layihəsinə ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| | |
|---|---|
| **Səsvermənin nəticələri** | (saat 13.41 dəq.) |
| Lehinə | 93 |
| Əleyhinə | 4 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 98 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Qanun layihəsi ikinci oxunuşda bütövlükdə qəbul edildi.

Deputatın statusu haqqında Qanun 3 maddədən ibarət-

dir. Biz bunu maddə-maddə səsə qoymalıyıq. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.42 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 4 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 101 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

2-ci və 3-cü maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 88 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 92 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

2-ci və 3-cü maddələrə münasibət bildirək. Deyəsən, düyməni basmağa da çətinlik çəkirik.

| **Səsvermənin nəticələri** | (saat 13.43 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 3 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

İkinci oxunuşda qanun layihəsinə bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.44 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 4 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun, qəbul edildi.

10-cu məsələ Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında qanun layihəsidir, 3 maddədən ibarətdir. Maddə-maddə səsə qoymalıyıq. Xahiş edirəm, 1-ci maddəyə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

2-ci və 3-cü maddələrə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.45 dəq.) |
|---|---|
| Lehinə | 94 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |

| | |
|---|---|
| Səs vermədi | 0 |
| İştirak edir | 97 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının etik davranış qaydaları haqqında" Qanuna ikinci oxunuşda bütövlükdə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.46 dəq.) |
|---|---|
| Lehinə | 96 |
| Əleyhinə | 2 |
| Bitərəf | 1 |
| Səs vermədi | 0 |
| İştirak edir | 99 |
| Nəticə: Qəbul edildi | |

Çox sağ olun. Bu 3 qanun ikinci oxunuşda qəbul edildi.

Növbəti 11-ci məsələ "Notariat haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədədir. Əli Hüseynli buyursun. Amma bu, sonuncu məsələdir, yəqin tənəffüssüz davam edəcəyik ki, bu məsələni bitirək. Əli müəllim, buyurun.

**Ə.Hüseynli.** Çox sağ olun, cənab Sədr. Hörmətli həmkarlar, bildiyiniz kimi, 22 noyabr ədliyyə orqanlarının 100 illik yubileyidir. Ədliyyə orqanları müstəqil Cümhuriyyətimizin ilk illərində qurulmuş, fəaliyyət göstərmiş, öz töhfəsini vermişdir. Bu baxımdan, cənab Sədr, təşəkkür edirik ki, ədliyyə orqanlarının yubileyi ərəfəsində bu məsələ də gündəliyə salınmışdır.

Son dövrlərdə ədliyyə orqanlarında çox ciddi islahatlar həyata keçirilir və bu islahatlar notariat orqanları ilə də bağlıdır. Cənab Prezident tərəfindən müzakirəmizə təq-

dim olunmuş qanun layihəsi də məhz notariat hərəkətlərinin aparılması ilə bağlı milli və beynəlxalq təcrübə nəzərə alınmaqla qanunvericiliyin təkmilləşdirilməsini nəzərdə tutur.

"Notariat kontoru" və "notariat kontorları" sözlərinin "notariat ofisi" sözləri ilə əvəzlənməsi təklif olunur. Həmçinin qanun layihəsində notarius vəzifəsinin tələblərinə əsasən hüquqşünas ixtisası üzrə üç ildən az olmayaraq iş stajının olması təklif edilir.

Layihədə notarius şəhadətnaməsinin məhkəmə və ya müvafiq icra hakimiyyəti orqanı tərəfindən deyil, yalnız ədliyyə naziri tərəfindən ləğv edilməsi təklif olunur. Amma bununla yanaşı, vaxtında və operativ araşdırılaraq qərar verilməsi məqsədi də güdülür. Xüsusi notariusun vəzifədən kənarlaşdırılması ilə bağlı da yeni müddəalar təklif olunur. Layihədə, əsasən, notariusların elektron notariat informasiya sistemindən istifadə etmələri, hər bir notariusun elektron imzasının olması təqdir olunmuşdur. Qanun layihəsinə, həmçinin xüsusi notariusun intizam məsuliyyətinə cəlb edilməsi qaydası və tərtib edilən intizam tənbehlərini tənzimləyən yeni normaların da əlavə olunması təklif olmuşdur. Həmçinin notariat xidmətinin inkişafının təkmilləşdirilməsi ilə bağlı notariusların məcburi üzvlüyünə əsaslanan, fəaliyyətini özünü idarəetmə prinsipi ilə həyata keçirən və qeyri-kommersiya hüquqi şəxs olan Notariat Palatasının yaradılması təklif olunur ki, bu da müasir beynəlxalq standartlara tam cavab verir. Ümidvarıq ki, "Notariat haqqında" Qanun bütövlükdə notariat hərəkətlərinin aparılması ilə bağlı yeni standartların tətbiqinə rəvac verəcək. Həmkarlarımdan layihəni dəstəkləməyi, səs verməyi xahiş edirəm.

*Azərbaycan Respublikası Milli Məclisi Sədrinin birinci müavini* ***Ziyafət Əsgərov*** *sədrlik edir*

**Sədrlik edən.** Sağ olun, Əli müəllim. Qanun layihəsinin müzakirəsinə başlayırıq. Siyavuş Novruzov.

**S.Novruzov.** Ziyafət müəllim, çox təşəkkür edirəm. Qanun layihəsinə səs verəcəyəm. Mən kiçik bir aydınlıq gətirmək istəyirəm. Sonra elə çıxacaq ki, mən vətən xaini, bunların hamısı isə vətənpərvər olacaq. Amma Azərbaycan dilini və Azərbaycanı sevməkdə barmaqla sayılan adamlardan biri də mənəm. Ziyafət müəllim, Siz özünüz də hüquqşünassınız.

**Sədrlik edən.** Siyavuş müəllim, bu məsələ bitdi də, bu məsələyə qayıtmayaq. Bu məsələ səsə qoyuldu, bitdi. Bunu uzatmağın nə mənası var ki? Buyurun.

**S.Novruzov.** Biz bunu Daxili Nizamnamədən ya çıxaraq, ya da başqa variantda verək. Daxili Nizamnamənin 3-cü maddəsində göstərilir ki, "Milli Məclisin deputatı Azərbaycan dilində və digər dillərdə çıxış edə bilər". Mən bunu əsas götürüb deyirəm də. Ya bunu buradan çıxarın, ya da ki, başqa variantda yazın.

**Sədrlik edən.** Fazil Mustafa.

**F.Mustafa.** Təşəkkür edirəm, Ziyafət müəllim. Mən qısaca bir məsələni Əli müəllimə xatırlatmaq istəyirəm. Bu dəyişikliklər müsbətdir, heç bir problem yoxdur, səs verəcəyəm. Notariatların əsas problemi nədir? Hansısa sənədi təsdiq etmək üçün notariata gedirsən, notarius isə 2 saatlıq hüzr yerinə gedib, işi var və onu gözləməli olursan ki, bu sənədi təsdiq etsin. Notariatda bu funksiya mütləq notarius köməkçisinə də həvalə edilməlidir, yəni ikinci bir şəxs olmalıdır. Məsələn, birdən rayonda hüzr və ya tədbir

var, ora gedib. Həmin gün notariat artıq heç bir sənədə möhür vurmur.

Demək istəyirəm, bu məsələnin çözülməsi vacibdir ki, bu səlahiyyət ya köməkçiyə, ya da kiməsə verilsin. Əvvəllər belə bir söhbət var idi. Amma hələ ki bu, həyata keçirilməyib və vətəndaşlar bundan xeyli sıxıntı çəkirlər. Bu gün olmasa da, gələcəkdə bu dəyişikliyin ən azı nəzərdə tutulması vacibdir. Çünki möhür eynidir, bir notariata aiddir, rəsmi dövlət sənədidir, onu birinci şəxs və ya ikinci şəxs vursun, fərqi yoxdur. Onsuz da məsuliyyəti xüsusi notariat kontoru daşıyır. Ona görə də bu məsələnin həlli vacibdir. Mən məqsədəuyğun bildim ki, burada bu məsələni xatırladım. Diqqətinizə görə sağ olun.

**Sədrlik edən.** Sağ olun. Başqa çıxış etmək istəyən yoxdursa, xahiş edirəm, qanun layihəsinə münasibət bildirək.

| **Səsvermənin nəticələri** | (saat 13.52 dəq.) |
|---|---|
| Lehinə | 95 |
| Əleyhinə | 1 |
| Bitərəf | 0 |
| Səs vermədi | 0 |
| İştirak edir | 96 |
| Nəticə: Qəbul edildi | |

Qəbul edildi, sağ olun. Bununla da iclasımız sona çatdı.